QARABAĞ AZƏRBAYCANDIR!



## Bir xanım, bir həkim, bir həyat yoldaşı, bir ana tanıdıq

8

SƏS

№ 014 (6697) 26 yanvar 2023-cü il. Qiyməti 60 qəpik

# Vətəndaş rifahına xidmət edən sosial islahatlar!

2



# Qarabağda Vardanyana qarşı müxalifət yaradılıb!

*Ermənistanın kifayət qədər məlumatlara malik olan qəzeti - "Hraparak" yazır ki, Qarabağdakı cinayətkar rejimin "dövlət naziri" Ruben Vardanyana qarşı artıq bir neçə müxalifət ocaqları yaranıb. "Onların bir hissəsi Ermənistan respublikasının nəzarəti altında fəaliyyət göstərən tərəflərdir. Ermənistan hakimiyyəti Vardanyanın Qarabağda hər hansı minimal uğur qazanmasının qarşısını almağa çalışır.*

14



## Virtual platforma: Bizi necə yönləndirirlər?



15

## Böyük mütəfəkkirlər diyarımız - ŞUŞA



12

## Britaniyalı deputat ermənipərəst həmkarlarını belə susdurdu!



11



6

## Hansı formada təhsil almalıyıq: Qiyabi, yoxsa əyani?



## "Qərb regionda dağıdıcı qarşıdurmalar yaratmağa çalışır, çünki..."

4

***Hər il ölkədə Prezident İlham Əliyevin təşəbbüsü ilə pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən addımlar atılır. Belə ki, vətəndaş rifahının təmin olunması, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi hər zaman dövlət başçısının diqqət mərkəzində olub. Əhalinin sosial rifahının gücləndirilməsi istiqamətində cəmiyyətin bütün təbəqələrini əhatə edən çoxsaylı sosial qanunlar qəbul olunub, fərman və sərəncamlar imzalanıb, mühüm tədbirlər həyata keçirilib. Son illərdə bu istiqamətdə ciddi irəliləyişlərə nail olunmuş, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılmışdır.***



# Vətəndaş rifahına xidmət edən sosial islahatlar!

## *İLHAM ƏLİYEV: "Bizim siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır, onun sosial rifahının gündən-günə yaxşılaşdırılması dayanır"*

Prezident İlham Əliyev son 19 illik prezidentlik dövrünün ilk günündən bu günə qədər dövlətin əsas siyasətinin sosial siyasət təşkil etdiyini vurğulayıb, hər zaman sözünü tutub. Dəfələrlə aztəminatlı ailələrin və sosial qayğıya ehtiyacı olan əhali qrupunun sosial rifahının yaxşılaşdırılması üçün dövlət tərəfindən sosial paketlər həyata keçirilib, həmin kateqoriyadan olan vətəndaşlara dövlət dəstəyi və qayğısı heç zaman azalmayıb. Məhz Azərbaycan Prezidenti İlham Əliyev cari ilin yanvar ayının 5-də "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncamı əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində əlavə tədbirləri özündə ehtiva edir.

### SON SƏRƏNCAM İLƏ AZƏRBAYCAN MÜSTƏQİLLİK TARİXİNDƏ İLK DƏFƏ OLARAQ MİNİMUM ƏMƏKHAQQI 200 DOLLARLIQ HƏDDİ KEÇDİ

Qeyd edək ki, sosial siyasət hər bir dövlətin daxili siyasətinin mühüm tərkib hissəsi olub, cəmiyyətin müxtəlif təbəqələri arasında münasibətlərin tənzimlənməsinə, əhalinin yaşam keyfiyyətinin və həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş tədbirlər sistemidir. Sosial siyasətin əsas məqsədi cəmiyyətin müxtəlif sosial qrupları arasındakı qeyri-bərabərliyin tədricən aradan qaldırılması və maddi-mənəvi sərvətlərin bölüşdürülməsində sosial ədalətin təmin edilməsidir. Məhz Azərbaycan Prezidenti İlham Əliyev yanvar ayının 5-də "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncamı əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində əlavə tədbirləri özündə ehtiva edir. Belə ki, bir çox kateqoriya üzrə əmək haqqının artırılması, xüsusilə də minimum əmək haqqının 300 manatdan 345 manata, minimum pensiyanın 240 manatdan 280 manata çatdırılması nəzərdə tutulur, eyni zamanda, müavinət və təqaüdlər də artırılacaq. Rəsmi məlumata görə, pensiya və əməkhaqqı artımı 800 min nəfəri əhatə edəcək. Son sərəncam sosial təminata daha çox ehtiyacı olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi baxımından əhəmiyyət daşıyır. Ümumilikdə, son 4 ildə sosial sahədə minimum əməkhaqqı 2,7 dəfə artırılaraq 130 manatdan 345 manata, minimum pensiya 2,5 dəfə artırılaraq 110 manatdan 280 manata çatdırılıb. Bu il sosial ödənişlərdə yeni artımlar üçün əlavə 750 milyon manat vəsait nəzərdə tutulub.

Qeyd edək ki, bu, son 5 ildə əhalinin sosial rifahının yüksəldilməsi ilə bağlı həyata keçirilən sayca 4-cü sosial islahatlar paketidir. Ən əsası isə, son sərəncam ilə Azərbaycan müstəqillik tarixində ilk dəfə olaraq minimum əmək haqqı 200 dollarlıq həddi keçməsidir. Prezidentimiz İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, bizim siyasətin mərkəzində Azərbaycan xalqı dayanır, onun sosial rifahının gündən-günə yaxşılaşdırılması dayanır. Sosial islahatlar bütün dövrlərdə və bütün ölkələrdə ən çətin, ağır gedişli və daha çox məsuliyyət tələb edən islahatlardır. Məhz buna görə də, ölkəmizdə sosial islahatlara siyasi, hüquqi, iqtisadi islahatların davamı olaraq ötən əsrin 90-cı illərinin sonlarından başlanmışdır.

### MÜASİR AZƏRBAYCAN DÖVLƏTİNİN MÜSTƏQİLLİK TARİXİNİN 19 İLƏ YAXIN BİR DÖVRÜ PREZİDENT İLHAM ƏLİYEVİN RƏHBƏRLİYİ İLƏ BAĞLIDIR

Müstəqil dövlətçiliyimizin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin siyasi idarəçilik məktəbinin layiqli davamçısı olan İlham Əliyev 2003-cü ilin oktyabrında keçirilən ilk prezidentlik inaqurasiyasında "Mən hər bir azərbaycanlının prezidenti olacağam" söylədi və arxasında böyük məna və məsuliyyət yükü olan bu fikirləri öz prezidentlik fəaliyyətində daim təsdiq etdi, əmələ çevirdi və dövlət idarəçiliyində bir meyar səviyyəsinə yüksəltdi. Cənab İlham Əliyev prezidenti olduğu hər bir vətəndaşın və bütövlükdə Azərbaycan xalqının əmin-amanlıq şəraitində, güvənli maddi təminat və sosial rifah içərisində yaşamağını istəyir və bu istəyi reallığa çevirmək üçün ən mütərəqqi proqramlar qəbul edir, ən mütərəqqi qərarlar, fərman və sərəncamlar verir, qanunlar imzalayır. Onun sosial siyasəti iki klassik prinsipə - sosial ədalət və sosial rifah prinsiplərinə əsaslanır. Prezidentin siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayanması ölkəmizdə milli iqtisadiyyatın dinamik artımı şəraitində sosial inkişafın davamlı xarakter almasına, sosial müdafiə və aktiv məşğulluq proqramlarının dəfələrlə genişlənməsinə, sosial sahədə vətəndaş rifahı və məmnunluğuna yönəlik mühüm irəliləyişlərə, sosial ödənişlərdə orta hesabla 10 -15 dəfə artımlara imkan verib. "Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır", - deyə bəyan edən dövlət başçısının tapşırıqları əsasında xüsusilə son illər aparılan inqilabi sosial islahatlar ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm nailiyyətlərin əldə olunmasını təmin edib.

Son 4 ildə 4 milyondan çox vətəndaşı əhatə edən üç sosial islahat paketi üzrə əlavə olaraq illik 6 milyard manat ayrılıb. Bu dövrdə minimum əməkhaqqı 2,3 dəfə, orta aylıq əməkhaqqı 53 faiz, əmək müqavilələri 30 faiz, əməkhaqqı fondu 2,2 dəfə, minimum pensiya 2,2 dəfə, orta aylıq pensiya 80 faiz, sosial müavinət və təqaüd ödənişləri 3,5 dəfə artıb.

Həmçinin bu dövrdə 10-dan çox yeni sosial ödəniş növü təsis olunub ki, bu da sosial təminat sisteminin əhatə dairəsini daha da genişləndirib. Zəfər dövrünü yaşayan qalib Azərbaycanda müharibədən sonra dövlət başçısının göstərişi ilə şəhidlərimizin ailə üzvləri və müharibə iştirakçıları ilə bağlı çox geniş tədbirləri əhatə edən sosial dəstək paketinin icrasına başlanılıb. Sosial dəstək tədbirləri 121 min şəxsi əhatə edib, onlara dəstəyönümlü 260 min xidmət göstərilib.

### ŞƏHİD AİLƏLƏRİNİN SOSİAL TƏMİNATI DA YAXŞILAŞIR. BİZ DAİM ONLARI DİQQƏT MƏRKƏZİNDƏ SAXLAYACAĞIQ

Prezident İlham Əliyevin uğurlu sosial siyasətində şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial təminatı, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması mühüm yer tutur. "Şəhid ailələrinin sosial təminatı da yaxşılaşır. Onlara nəzərdə tutulmuş müavinətlərin məbləği müntəzəm olaraq artırılır. Biz daim onları diqqət mərkəzində saxlayacağıq",- deyə qeyd edən Prezident İlham Əliyevin imzaladığı sənədlər nəticəsində şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial ödənişləri təkcə son 4 ildə 2 dəfədən çox artırılıb. Eyni zamanda, bu dövrdə şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib. Postmüharibə dövründə onlara 4300, ümumilikdə ötən dövrdə 13,1 min mənzil və fərdi ev təqdim edilib. 2022-ci il üzrə də 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub ki, artıq 1300-ü təqdim edilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin rifahına yönələn proqramlardan biri də onların avtomobillə təminatıdır. Postmüharibə dövründə bu istiqamətdə də tədbirlər geniş miqyas alıb, eyni zamanda, 44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz də avtomobillə təmin edilirlər. 44 günlük Vətən müharibəsindən sonra 304, ümumən ötən dövrdə 7500-dən artıq avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilib.Dövlət başçısının şəhid ailələri və müharibə iştirakçılarına diqqət və qayğısının daha bir təzahürü kimi, son illər həmin kateqoriyalarla bağlı növbəti sosial dəstək proqramları icra olunub: 2019-2020-ci illərdə 1997-ci il avqustun 2-dək olan dövr üzrə şəhid hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələri birdəfəlik ödəmə ilə təmin edilib. 2022-ci ilin avqust ayında isə 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş şəxslər və vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramına başlanıb və qeyd olunan kateqoriyaya aid artıq 16,7 min şəxs üzrə birdəfəlik ödəmə verilib. 2022-ci ilin əvvəlindən isə Vətən müharibəsinin iştirakçılarına "Müharibə veteranı" adı verilərək Prezidentin aylıq təqaüdü təyin olunub.

Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılan, 2019-cu ilin may ayında açılışı olan DOST Agentliyi son illər Azərbaycanda aparılan sosial islahatların mühüm nailiyyətlərindən biridir. Dövlət başçısı "DOST mərkəzləri müasir Azərbaycanın simasıdır" deyə bildirib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, modern və çevik, tam şəffaf mexanizmlər üzərində, vətəndaş məmnunluğuna uyğun təqdim edilməsinə imkan verib. DOST xidmətlərindən vətəndaş məmnunluğu səviyyəsi 98 faizdən çoxdur. Eyni zamanda, 2018-2022-ci illərdə 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib, bir uşaq reabilitasiya müəssisəsi - Qəbələ Uşaq Reabilitasiya Mərkəzi açılıb. Yaxın aylarda Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Şəmkir Uşaq Reabilitasiya Mərkəzi də istifadəyə veriləcək. Bu işlər reabilitasiya mərkəzlərinin potensialının, reabilitasiya xidmətləri göstərilən şəxslərin illik sayının 4 dəfə artmasına imkan verib. Bir sözlə, bütün bu addımlar Prezident İlham Əliyevin ardıcıllıqla həyata keçirdiyi güclü sosial siyasətin əsasında məhz vətəndaş amilinin, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Azərbaycan özünün dərin məzmunlu sosial siyasətinə bundan sonra da sadiq qalacaq.

### Son dörd il ərzində 4 milyon vətəndaşı əhatə edən 3 böyük sosial islahat paketi həyata keçirilib

Qeyd edək ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan Respublikasının Dövlət Büdcəsində də öz əksini tapmışdır. Belə ki, hər il dövlət büdcəsində sosial yönümlü xərclər əhəmiyyətli dərəcədə və mövcud vəziyyətə uyğun artırılır. 2022-ci ilin dövlət büdcəsində sosial xərclərin payı 46,5 faizə çatmışdır. Ölkə başçısı, cənab Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, 2022-ci ilin dövlət büdcəsində əməkhaqlarının, əmək pensiyalarının, sosial müavinətlərin və digər sosial ödənişlərin artırılması üçün 1 milyard 440 milyon manat məbləğində müvafiq maliyyə təminatı yaradılmışdır. Ölkəmizdə son dörd il ərzində 4 milyon vətəndaşı əhatə edən 3 böyük sosial islahat paketi həyata keçirilmişdir. 2019-2022 ci illərdə Azərbaycanda minimum əməkhaqqı 2,3 dəfə artaraq 130 manatdan 300 manata çatmışdır. Orta aylıq əməkhaqqı 37% artmışdır. Əmək müqavilələrinin sayında 30% və ya 400 minə yaxın, əməkhaqqı fondunda isə 2,2 dəfə artım qeydə alınmışdır.Beləliklə, Prezident İlham Əliyevin vətəndaşlarımızın sosial rifahının yüksəldilməsinə, ölkəmizin daha da inkişafına xidmət edən sərəncamları, fərman və qərarları reallaşdırılan böyük sosial islahatlar paketinin tərkib hissəsidir.

***R. Kamalqızı***

# Heydər Əliyev-100



# QÜDRƏTLİ, QALİB AZƏRBAYCANIN MEMARI - HEYDƏR ƏLİYEV

***Artıq bir aya yaxındır ki, 2023-cü ilin - "Heydər Əliyev ili"nin sevincini yaşayırıq. Və 2023-cü ilin də əvvəlki illər kimi, uğurlu, qələbə zəfərli il olacağına xalqımız böyük ümidlə inanır. Çünki bu ili fərqli ovqatla, qalib ölkənin qalib xalqı qalib kimi böyük qürur və fəxarətlə ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünü qeyd edəcəyik.***

Çünki bugünkü günün memarı olan Ümummilli Liderin arzuları artıq həyata keçirilib. Bütün fəaliyyətini Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına həsr edən ulu öndərin yarımçıq qalmış ideyalarını dahi şəxsiyyətin siyasi məktəbinin ən layiqli davamçısı Qalib Liderimiz Prezident İlham Əliyev reallaşdırdı. Ali Baş Komandan, Prezident İlham Əliyev "Dəmir yumruq" siyasəti ilə Müzəffər Azərbaycan Ordusu rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə 44 gün ərzində xalqımızın 30 illik yurd həsrətinə birdəfəlik son qoydu, Ermənistanı diz çökdürdü. Və 2020-ci ilin noyabrın 10-da Ermənistan dövləti kapitulyasiya oldu. Azərbaycan qalib Sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyev siyasi strategiyası sayəsində öz gücünə torpaqlarımızı işğaldan azad etdi. Bununla da ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi. Biz doğma Qarabağımıza qovuşduq!

## 1969-CU İL 14 İYUL - BÖYÜK QURUCULUQ VƏ YÜKSƏLİŞ MƏRHƏLƏSİ

Belə bir fikir var: tarix ən ədalətli hakimdir və bu gün Zəfərə gedən yolun əsasında tarixi şəxsiyyət, dahi Heydər Əliyevin ölməz ideyaları dayanır. Bu 1969-cu il iyulun 14-ü ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etməyə başlaması kimi son dərəcə qiymətli bir hadisə ilə əbədiləşmişdir. Həmin dövrdə Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni durumu heç də ürəkaçan deyildi. O zamankı sovetlər birliyinin ən ucqar respublikalarından biri kimi səciyyələnən Azərbaycanda idarəetmədə çoxlu nöqsanlara yol verilmiş, iqtisadiyyat geri qalmış, sosial-mənəvi mühit şəffaflıqdan uzaq düşmüşdü. Belə bir vaxtda Heydər Əliyevin respublikanın ali vəzifəsinə - Azərbaycan Kommunist Partiyasının Birinci Katibi seçilməsi tariximiz və taleyimiz, Vətənimiz və xalqımız üçün, sözün əsl mənasında, dönüş və xilas, möhtəşəm tərəqqi və yüksəliş erasının əsasını qoydu və xalqın etimadını Ondan başqa heç kim doğrulda bilməzdi. Belə bir dahi insanın Azərbaycanda rəhbərliyə başlaması respublikanın xilası üçün yeganə düzgün yol idi. 1969-cu ildən başlanan böyük quruculuq və yüksəliş mərhələsi qısa müddətdə Azərbaycanı bütün sahələrdə geniş tərəqqi yoluna çıxardı. Azərbaycanda Heydər Əliyevin birinci hakimiyyəti dövründə (1969-1982) sosial, siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində ölçüyəgəlməz uğurlar qazanılmış, qüdrətli iqtisadi potensial, maddi-texniki baza yaradılmış, əhalinin rifahı xeyli yüksəlmiş, elm, təhsil, mədəniyyət güclü inkişaf prosesi keçmiş, milli şüurun oyanışı və dirçəldilməsi istiqamətində çox mühüm işlər görüldü. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə sənayedə 581 adda yeni tipli maşın, avadanlıq, aparat, cihaz nümunələri yaradılmış, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş sex, istehsal sahəsi və i.a. yaradılmışdır. 1970-ci ildən başlayaraq Azərbaycan sənaye məhsulunun artım sürətinə görə müttəfiq respublikalar arasında ən qabaqcıl mövqeyə çıxmışdı. Respublikada kənd təsərrüfatı və onun xammalını emal edən sahələr böyük sürətlə inkişaf edirdi. 1970-1982-ci illərdə kənd təsərrüfatı məhsulu 2,6 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə artmışdı. Bütün bunlar inkişafın ümumiləşdirilmiş göstəricisi olan milli gəlirin sürətlə artmasına səbəb oldu. Eyni zamanda, Azərbaycan dilinin dövlət dili kimi Konstitusiya səviyyəsində rəsmi status qazanması da dahi rəhbərin qətiyyəti, siyasi iradəsi hesabına gerçəkləşdi. Möhtəşəm fəaliyyəti ilə şöhrətlənən dahi Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi. Bütün bunlar isə 1969-cu il iyulun 14-dən başlanan şanlı Heydər Əliyev epoxasının vüsət və əzəmətinin parlaq təzahürü idi. Çünki Heydər Əliyevin respublika rəhbərliyinə gəlişi ilə ölkəmizdə görünməmiş canlanma və inkişaf, nəhəng tikinti-quruculuq işləri başlandı. Bakıda o dövr üçün nadir müəssisələr - məişət kondisionerləri, dərin dəniz özülləri zavodları, paytaxtımıza bu gün də yaraşıq verən ictimai binalar - "Gülüstan" sarayı, Heydər Əliyev Sarayı tikildi. Həmçinin Yeni Əhmədli, Günəşli kimi nəhəng yaşayış massivləri salındı. Kənd təsərrüfatı məhsulları istehsalı dəfələrlə artdı. Bunun nəticəsi olaraq, əhalinin güzəranı yaxşılaşdı, bir çox sosial layihələr həyata keçirildi. Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər haqlı olaraq intibah dövrü kimi səciyyələndirilir. Respublikanın əvvəlki rəhbərlərindən fərqli olaraq, Heydər Əliyev bölgələrə tez-tez səfərlər edir, insanlarla bilavasitə ünsiyyət qurur, onların problemləri və qayğıları ilə şəxsən maraqlanırdı. Onun alimlər, yazıçılar, mədəniyyət xadimləri ilə görüşləri də ənənə halını almışdı. 1982-ci ildə Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. Azərbaycan xalqının böyük oğlu mərkəzi hökumətdə tutduğu vəzifənin imkanlarından istifadə edərək, İttifaq əhəmiyyətli bir sıra böyük layihələri Bakıya yönəltdi. Həmin illərdəki coşqun fəaliyyəti, yüksək işgüzarlığı, fitri təşkilatçılıq bacarığı onu daha da şöhrətləndirdi.

Mixail Qorbaçov SSRİ-də siyasi hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə münasibət dəyişdi. Baş katiblə aralarında yaranmış ciddi fikir ayrılığı səbəbindən 1987-ci ildə tutduğu vəzifələrdən istefa verdi. Bundan bir il sonra Dağlıq Qarabağda separatçılıq hərəkatı baş qaldırdı, Azərbaycanın qara günləri başladı. Yəqin ki, o vaxt Heydər Əliyev rəhbərlikdə olsaydı, Azərbaycan xalqı Qarabağ problemi ilə, qara Yanvarla və digər faciələrlə üzləşməzdi. 1990-cı illərin əvvəlində - Vətənin ağır günlərində Ulu Öndər Azərbaycana qayıtdı. Ovaxtkı rəhbərlik onun Bakıya yolunu kəsdiyi üçün doğulub boya-başa çatdığı Naxçıvana getdi. Naxçıvan Ali Sovetinin Sədri seçilən Heydər Əliyev muxtar respublikanı erməni təcavüzündən, siyasi təlatümlərdən qorudu. Yetmiş ildən sonra ilk dəfə Naxçıvanda üçrəngli bayrağımızı ucaltdı.

## 1993-CÜ İL 15 İYUN - QURTULUŞ VƏ İNKİŞAF YOLU

30 il bundan əvvəl - 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, inkişafın sarsılmaz təməlləri qoyuldu. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən ümummilli lider problemlərin həlli üçün, ilk növbədə, bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasına yönəltdi və buna nail oldu, inkişafın təməllərini qoydu. Bu istiqamətdə ilk addım 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması ilə atıldı. Sonrakı dövrdə ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə qədim İpək Yolunun bərpasına, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişinə başlanıldı. Prezident İlham Əliyevin hakimiyyəti dövründə bu transmilli layihələrə Çini Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi əlavə edildi. 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə, ölkədə daha genişmiqyaslı islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına start verildi. Ulu öndər Heydər Əliyev siyasətinin davamçısı Prezident İlham Əliyev son 19 ildə ümummilli liderin ideyalarının işığında böyük inkişaf yolu keçib, ölkəmizin ərazi bütövlüyü bərpa edilib. Bütün bunlar əyani şəkildə göstərir ki, Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. Məhz ulu öndərin ordu quruculuğu istiqamətində başladığı işlər və müəyyənləşdirdiyi strategiya sayəsində bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında yer alır, texniki təchizat baxımından bir çox ölkələrin ordularını üstələyir. Təsadüfi deyil ki, Azərbaycanın Vətən müharibəsi, xüsusən misilsiz Şuşa əməliyyatı dünyanın aparıcı ölkələri tərəfindən öyrənilməkdədir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Vətən müharibəsində parlaq Qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad edib, ölkəmizin ərazi bütövlüyü təmin olunub. Ulu öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Liderin məcburi köçkünlər qarşısında çıxışlarının birində böyük inamla söylədiyi bu sözlər yada düşür: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik".

Ruhun şad olsun, ulu öndər, artıq 28 ildən sonra Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Bəli, bu gün müstəqil Azərbaycanın xoşbəxtliyi ondadır ki, Prezident İlham Əliyev Ulu Öndərin siyasətinin ardıcıllığını uğurla təmin edir. Sərəncamda vurğulandığı kimi, Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli ulu öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Və ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirdi və ulu öndər buna inanır və deyirdi: "Mən Azərbaycanda əbədi olacağam". Çünki Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Əldə edilən hər bir uğurumuz Heydər Əliyevin xidmətləridir". Çünki Bu yol - Prezident, Ali Baş Komandanımız Qalib Lider İlham Əliyev yolunun dönməz və sarsılmaz yoludur.

***RƏFİQƏ HÜSEYNOVA***

# “Qərb regionda dağıdıcı qarşıdurmalar yaratmağa çalışır, çünki...”

*Aleksandr Nosoviç: Avropa Parlamentinin Qarabağın erməni əhalisinin hüquqları mövzusunu qeyd etməsi Azərbaycana təzyiq vasitədir*

***Rusiyalı politoloq, RuBaltic.Ru analitik portalının baş redaktoru Aleksandr Nosoviç "Caliber" analitik mərkəzinə müsahibəsində regiondakı vəziyyətlə bağlı maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.***



**- Otuz ilə yaxındır ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı zamanı Avropa təşkilatları Cənubi Qafqazda baş verənlərə obyektiv qiymət verməkdən çəkinməyiblər. Sizcə, indi onların anti-Azərbaycan fəaliyyətinə səbəb nədir?**

- Avropa ölkələri Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı NATO-ya üzv ölkələrin institutları kimi çıxış edirlər. Şimali Atlantika Alyansı Rusiya ilə qarşıdurma kontekstində postsovet məkanında, Rusiyanın yaxın xaricində gərginlik zonaları yaratmalıdır. Ukrayna cəbhəsinə əlavə olaraq, Rusiyada digər gərginlik zonalarının açılması üçün çalışırlar ki, Moskva öz qüvvələrini və resurslarını ora köçürmək məcburiyyətində qalsın və bununla da Ukraynadakı xüsusi hərbi əməliyyatın icrası ləngisin. Başqa sözlə, Avropa Cənubi Qafqaz regionunda sabitliyin və sülhün qorunmasında əslində maraqlı deyil. Lakin strateji vəzifənin- Rusiya üçün yeni başağrısının yaradılmasına görə, kollektiv Qərbin bu istiqamətdəki hərəkətləri dağıdıcıdır. Bu, Azərbaycan, Ermənistan və Gürcüstana da aiddir. Bir sözlə, regionun bütün ölkələrinə münasibətdə, burada vəziyyəti gərginləşdirməyə, bununla da Rusiya Federasiyasının cənub-qərb sərhədlərində geostrateji mövqelərini pisləşdirməyə çalışırlar.

**- Avropalı deputatlar Ermənistan-Azərbaycan qarşıdurmasının gedişatını xristian həmrəyliyi prizmasından nəzərdən keçirirlərmi?**

- Avropa Parlamentində fəaliyyətlərini dini motivlər üzərində quran bir qrup radikal sağçı deputat var. Bu Avropa Parlamentinin deputatları Rusiyaya qarşı sanksiyaların ən fəal tərəfdarları olurlar və onlar Aİ-dən kənar ölkələrlə də müsəlman ölkələri olub-olmaması əsasında münasibətlər qururlar. Azərbaycan və Türkiyə kimi ölkələrə münasibətdə də özlərini az qala səlibçilərin varisləri hesab edirlər. Onlar əmindirlər ki, qeyri-xristian ölkələri ilə əlaqələr sivilizasiyaların barışmazlığı əsasında qurulmalıdır. Onların Azərbaycana qarşı səs verməlarində də yəqin ki, dini motiv ola bilər.

**- Avropa Parlamenti də Qarabağdakı Rusiya sülhməramlılarının BMT mandatı altında ATƏT-in sülhməramlıları ilə əvəz edilməsində israrlıdır. Bunu necə şərh edərdiniz?**

- Qərb Rusiya sülhməramlılarının keçmiş Sovet respublikalarında bütün dondurulmuş münaqişə zonalarından çıxarılması üçün fəal mübarizə aparır. Qərb üçün Rusiya sülhməramlıları Rusiyanın geosiyasi mövcudluğunun simvoludur və onların fikrincə, orada olmamalıdır. ATƏT və ya BMT sülhməramlıları dedikdə, onlar neytral beynəlxalq sülhməramlı missiyalar kimi maskalanmış geosiyasi mövcudluqlarını nəzərdə tuturlar.

Ümumiyyətlə, ATƏT bir təşkilat kimi Qərb dövlətlərinin göstəriş və tapşırıqlarını yerinə yetirən qərəzli qurumdur. Ona görə də ATƏT-in sülhməramlıları bitərəf ola bilməz. Qərb donmuş, qaynayan və ya qaynar münaqişə zonalarında olan Rusiya sülhməramlılarını öz sülhməramlıları ilə əvəz etməyə çalışır. Bu arada, əgər Rusiya üçün öz sərhədlərinin bütün perimetri boyunca sülh və sabitliyi qorumaq faydalıdırsa, ABŞ və Aİ üçün bu sərhədlərin alovlanması, ərazi münaqişələrinin və müharibələrin bütün perimetri boyunca alovlanması faydalıdır- o cümlədən dini, etnik təmizləmə, dövlətlərin parçalanması, hakimiyyətlərin dəyişdirilməsi və s. Çünki bu, Rusiyanı zəiflədəcək...

**- Aİ bu məqsədlər üçün insan haqları mövzusundan istifadə edirmi?**

- Avropalılar beynəlxalq münasibətlərin digər iştirakçıları ilə müqayisədə statuslarını yüksəltmək və onlarda bərabərlikdən imtina etmək imkanı tapmaq üçün insan hüquqları mövzusundan həmişə istifadə edirlər. İnsan hüquqları diskursunun köməyi ilə avropalılar həmişə ünsiyyət qurduqları insanlardan daha yüksək olduqlarından çıxış edirlər və buna görə də şərtləri diktə edə bilirlər, bir növ, əxlaqi modellər kimi çıxış edirlər. Beləliklə, avropalılar və amerikalılar əsas xarici siyasət məsələlərində region ölkələrini ram edirlər. Baxmayaraq ki, daxili siyasət də, çünki insan haqları mövzusu Qərb tərəfindən digər dövlətlərin daxili işlərinə qarışmaq üçün əsas kimi istifadə olunur. Və Avropa Parlamentinin Qarabağın erməni əhalisinin hüquqları mövzusunu qeyd etməsi Azərbaycanla bərabərlik mövqeyindən, beynəlxalq münasibətlərdə bərabərhüquqlu iştirakçı kimi deyil, özünün üstünlüyü mövqeyindən danışmaq üçün əsasdır, ona görə "mənəvi haqlılıq" mövqeyini ortaya qoydu ki, daxili və xarici siyasətdə nə edəcəyini Azərbaycana diktə etmək mümkün olsun.

**- Enerji sektorunda Azərbaycanı nüfuzdan salmaqda maraqlı qüvvələr varmı?**

- Enerji sektorunda Rusiyaya münasibətdə eyni şeyi edən qüvvələr Azərbaycan da gözdən salmağa çalışır. Bunlar ABŞ-ın mayeləşdirilmiş təbii qazına (LNG) bütün rəqibləri Avropadan sıxışdırmaq istəyən lobbiçilərdir. Müvafiq olaraq, onların insan haqları ritorikası adı altında bütün fəaliyyətləri əsaslı bəhanə ilə avropalıları Rusiya, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Qazaxıstanla enerji əməkdaşlığından məhrum etməyə yönəlib. Məqsəd ABŞ-ın Avropa enerji bazarında inhisarçı oyunçuya çevrilməsidir. Beləliklə, avropalıların amerikalıların Atlantik okeanı boyunca onlara göndərdiyi mayeləşdirilmiş qaz tankerlərindən başqa heç bir strateji enerji mənbələri olmayacaq.

***Tərcümə - Elçin Bayramlı***

# “AŞPA-nın qəbul etdiyi qərarların heç bir əhəmiyyəti yoxdur”




“Azərbaycan 44 günlük müharibə nəticəsində Ermənistan və ermənilə-ri dəstəkləyən dövlətlərin gözləmədiyi bir halda böyük bir qüvvə üzərində qələbə çaldı. Bizim zəfərimiz nə Ermənistanın qonşusu olan İran, nə onu bu və ya digər formada pərdəarxası dəstəkləyən Rusiyanın müəyyən qüvvələri, nə Fransa, nə də digər dövlətləri heç cür qane etmir. Onlar çalışır ki, Azərbaycanı siyasi cəhətdən özlərinə tabe etsinlər. Ona görə də 10 noyabr bəyannaməsinin şərtlərinə əməl olunmasını həyata keçirmək istəmirlər”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.

Onun sözlərinə görə, əvvəla burada böyük bir səhv Rusiya tərəfindən həyata keçirildi: "Rusiyanın sülhməramlı qüvvələri bəyannamənin 4, 6 və 9-cu maddələrini icra etmirlər. Yəni, yarımçıq icra edirlər. Hələ ki, Qarabağda erməni silahlı qüvvələri qalıb və onları çıxarmaq məsələsi həll olunmayıb.

İkincisi, bu müddət ərzində 2021-ci ildə Ermənistanda hazırlanmış minaların Azərbaycan ərazisində tapılması ona dəlalət edir ki, müharibədən sonra da Ermənistan Rusiya sülhməramlılarının nəzarəti altında olmasına baxmayaraq Azərbaycan ərazisini minalayırlar.

Qaldı ki, ümumiyyətlə Azərbaycan ərazisində minaların olması məsələsinə, apardığımız tədqiqatlar göstərir ki, Azərbaycan ərazisində əsasən piyada və tank əleyhinə minalardan istifadə olunur. Mina təmizləmə prosesində ANAMA-nın böyük xidməti var. Həmçinin, minatəmizləmə üçün cənab Prezidentin həyata keçirdiyi taktika da çox uğurludur. Hüquq-mühafizə orqanları Azərbaycan insanlarına həmin ərazilərə keçməyə imkan vermir. Bu addımlar atılmasa idi Azərbaycan müharibədəki qədər şəhid vermiş olardı.

Ermənistan özünü biyabır edir. Üçtərəfli sazişdə Azərbaycan açıq şəkildə qərb rayonlarını Naxçıvana birləşdirməyi yazıb. Bu bədbəxtlər hələ də başa düşməyiblər ki, Azərbaycan Prezidenti o qədər peşəkar siyasətçidir ki, orada o sözü yazmamaq o demək deyil ki, bu olmayacaq.

AŞPA-nın qəbul etdiyi qərarların heç bir əhəmiyyəti yoxdur. Çünki bu qərarlar tövsiyyə xarakteri daşıyır. İkincisi, bu parlament hazırda Fransanın tam təsiri altındadır. Üçüncüsü isə Fransa Emmanuel Makron özü erməni kökənlidir və başına yığdıqları da ermənilərdir. Fransa həmişə tərəf tutub və bu gün də edir.

***A. Vəli***

# “Azərbaycanla Çin arasında yüksək səviyyəli dostluq əlaqələri mövcuddur”

“Bu il də Davos dünya iqtisadi forumunda ölkələrin dövlət və hökumət başçıları, dünyanın nəhəng şirkətlərin rəhbərlərinin prezident cənab İlham Əliyevlə görüşlərində Azərbaycana böyük maraq göstərdiklərini şahidi olduq. Prezident cənab İlham Əliyev görüşlərdə Azərbaycanın beynəlxalq səhmdarlarının özünə açıq olduğunu və biznesin inkişafı üçün ölkəmizdə onlar üçün hər cür şərait yaradıldığını bildirdi. Dünyanın ikinci ən böyük iqtisadiyatına malik Çin dövləti də Azərbaycanla iqtisadi əlaqələr qurmağa böyük maraq göstərir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Kamilə Əliyeva deyib.



Onun sözlərinə görə, Prezident cənab İlham Əliyev yanvarın 17-də Davosda Çinin CGTN televiziya kanalına Azərbaycan-Çin əlaqələri, eləcə də Şərq-Qərb nəqliyyat dəhlizi üzərində yerləşən Azərbaycanın öz ərazisində böyük nəqliyyat logistika layihələrin keçirdiyi barədə müsahibə verdi: "Bu gün Azərbaycanla Çin arasında yüksək səviyyəli dostluq əlaqələri mövcuddur. Təsadüfi deyil ki, Çinin dövlət başçısı Si Cinpin Prezident cənab İlham Əliyevi "Çinin böyük dostu" adlandırmışdı. Bu hər iki dövlət başçılarının, eləcə də ölkələrin dost münasibətində olduğunun göstəricisidir. Hər iki dövlət arasında iqtisadi münasibətlə yanaşı siyasi münasibətlər də yüksək səviyyədədir. Azərbaycan və Çin həmişə bir birinin ərazi bütövlüyü və suverenliyini dəstəkləyib.

Azərbaycanla Çin Orta Dəhlizin yaradılmasında əməkdaşlıq edir və bu dəhlizin reallaşmasına öz töhfələrini verirlər.

İnformasiya texnologiyaları sahəsini təmsil edən bir çox Çin şirkətləri Azərbaycanda fəaliyyət göstərir və enerji kənd təsərrüfatı yüksək texnologiyalar sahəsində də əməkdaşlıq əlaqələrin qurulması üçün də böyük perspektivlər mövcuddur".

Deputat sözlərinə belə davam edib: "Yaxın zamanda Ələtdə istifadəyə veriləcək azad iqtisadi zonada Çin şirkətlərinin də fəaliyyət göstərmələrinə böyük ümidlər var. Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünə ilk gündən fəal şəkildə qoşulan dövlətlərdən oldu. Ölkəmiz Xəzər dənizində ən böyük ticarət limanını inşa etdi. Azərbaycan Xəzərdə yüklərin daşınması üçün qəmiqayırma zavodu inkişa etmişdir ki, bu da Şimal-Cənub marşrutu üzrə daşımanı daha da fəallaşdırdı. Azərbaycanda inşa edilən avtomagistral və istifadəyə verilən eləcədə yeni inşa ediləcək beynəlxalq hava limanları Şimal-Qərb marşrut xətlərilə yükdaşımalara böyük fayda verəcək.

Azərbaycan Çinlə yaşıl enerji sahəsində də əməkdaşlıq etmək niyyətindədir. Bu sahədə Azərbaycanda böyük potensial var, Çin isə bu sahədə yüksək texnoloji nəaliyyətlər qazanıb.

Bu gün böyük dövlətlərin liderləri Azərbaycanı özlərinə dost və tərəfdar ölkə görürlər. Siyasi liderlər vurğulayırlar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev verdiyi bütün vədləri yerinə yetirir. Azərbaycan vətəndaşları da öz Prezidentinə inanır və cənab İlham Əliyev də seçildiyi ilk gündən Azərbaycana xalqına verdiyi bütün vədləri yerinə yetirib.

Bu gün biz şahidi oluruq ki, bəzi dövlət başçıları var ki, onların ambisiyaları, yürütdükləri qeyri-səmimi və yalnış siyasətləri nəticəsində xalqları müharibələrdən iqtisadi böhrandan əziyyət çəkirlər. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, bütün dünya ölkələrinin liderinin də hörmət və rəğbət bəslədiyi İlham Əliyev kimi bir lideri-dövlət başçısı var".

***Ayşən***

RAKURS

# Ukrayna: Kremllə Ağ Ev arasında alver predmeti



## Kiyevlə Moskvanın sülh perspektivləri getdikcə tükənir

Qərb münaqişəyə son görüntüsü yaratsa belə, Ukraynanın Avrasiyanın xəritəsində "strateji kor nöqtə" olaraq qalmasını təmin etməyə çalışacaq və Kiyevin Rusiyanın təsir dairəsinə qayıtmasına heç vaxt razı olmayacaq. Bu da artıq bir ildən artıqdır ki, dünyanın ən qaynar nöqtəsinə çevrilən Ukrayna üçün başağrısı olmaqda davam edəcək. Son günlər Ukrayna münaqişəsi ilə bağlı çoxlu siqnallar daxil olur və bu siqnalların mənası münaqişənin gələcək taleyinin başa düşülməsinə ciddi təsir edib. Bu siqnalların bəziləri "münaqişənin həlli"nə işarə etdiyi üçün müsbət, bəziləri isə əksinə, "qarşıdurmanın davamı" mənasında olduğu üçün mənfi xarakter daşıyır. Beləliklə, son mənzərə olduqca ziddiyyətlidir. Bəs, bu paradoksların reallığı nədir? Və bu paradoksları NATO-ya üzv ölkələrin bu münaqişə ilə bağlı fərqli baxışları və fikir ayrılıqları əsasında izah etmək olarmı? Axı, aydındır ki, məsələn, NATO-nun üzvü olan Türkiyənin münaqişəyə baxışı, məsələn, Böyük Britaniya və ya Polşanın, həmçinin Şimali Atlantikanın üzvü olan ölkələrin baxışından çox fərqlidir.

### Kulebanın dediklərinin transkripsiyası

Ukraynanın müxtəlif rəsmilərinin mövqelərinə üstüörtülü nəzər salmaq bu ziddiyyəti müəyyən qədər izah edə bilər. Bu yaxınlarda Ukraynanın xarici işlər naziri Dmitri Kuleba Qərb liderlərinin münaqişə zamanı Ukraynaya kifayət qədər dəstək vermədiyini söyləyib. Kulebanın bu sözlərini və Ukrayna prezidenti Vladimir Zelenskiyə məxsus oxşar bəyanatları deşifrə etmək o qədər də çətin deyil. Bildiyiniz kimi, Ukraynanın NATO-ya ölkə üzərində uçuşa qadağa zonasının yaradılması ilə bağlı müraciəti Rusiya ilə münaqişənin lap əvvəlində səsləndirilmişdi. Brüssel bunu avropasayağı şərh etdiyi üçün əvvəlcə NATO rəhbərliyi tərəfindən Rusiya ilə Alyans ölkələri arasında birbaşa müharibənin ehtimal başlanğıcı kimi qəbul edib rəsmi imtina ilə qarşılanmışdı. Bundan əlavə, Qərb dövlətlərinin və NATO-nun Rusiyanın enerji resurslarının ixracı ilə bağlı kollektiv sanksiyaları həyata keçirilməyə başlayanda, ayrı-ayrı NATO ölkələri sanksiyalar paketinin tam şəkildə həyata keçirilməsini özləri üçün qəbuledilməz hesab edərək, Avropa İttifaqının rəhbərliyi ilə sövdələşməyə başlayıblar. Həm də özləri üçün "imtiyazlar" və "istisnalar" əldə etmək və son nəticədə ayrı-ayrı NATO-ya üzv ölkələr hətta sanksiyalardan (rəsmi və ya olmayan) yan keçməyə və Moskva ilə müxtəlif sövdələşmələr etməyə başladılar. Və hətta Vaşinqtonun Ukraynada "Patriot" raket sistemlərini yerləşdirmək vədi belə, Ukrayna hakimiyyətinin nəzərində bu ölkənin, onların dediyi kimi, "döyüş meydanında ehtiyac duyduğu" "effektiv dəstək"ə çevrilmədi. Vaşinqtona səfəri zamanı Zelenski bildi ki, ukraynalı hərbçilərə bu sistemdən necə istifadə etməyi öyrətmək, hətta onu istədiyi sürətlə hissə-hissə ölkəyə çatdırmaq mümkün olmayacaq. Üstəlik, Ukraynanın Amerika "Patriot" sistemlərini yerləşdirməsinə cavab olaraq Rusiyanın özünün ballistik raketlərindən mümkün istifadə etməsi Kiyevə bu Amerika sistemlərinin yerləşdirilməsindən əldə edə biləcəyi faydadan qat-qat baha başa gələ bilər. Üstəlik, çatışmazlıqlar da çoxdur. Ukrayna rəhbərliyinin başa düşdüyü kimi, Vaşinqtonun hətta ən "cazibədar" vədlərinin yerinə yetirilməsi çox böyük risklərlə doludur. Ancaq hekayə hələ bununla bitmir.






Ukrayna NATO və Aİ-yə üzvlük məsələsini unutmalıdır, çünki Qərb açıq şəkildə tərəfdaşları arasında az qala "yanmış torpağa" çevrilmiş dövlətin olmasını istəmir. Aİ və NATO-nun aparıcı ölkələrindən biri olan Fransanın prezidenti Emmanuel Makron son açıqlamalarının birində vurğulayıb ki, Ukraynanın Alyansa tamhüquqlu üzvlükdən indi söhbət gedə bilməz, birincisi, bu məsələ Rusiya üçün "qırmızı xətt" məsələsidir. İkincisi, Ukraynanın NATO-ya qəbulu avtomatik olaraq Alyans ölkələri ilə Rusiya arasında müharibə demək olacaq. Ukraynanın Aİ-yə tamhüquqlu üzvlüyünün taleyi də göz qabağındadır. Bu assosiasiyaya üzv olan bir çox dövlət münaqişələrlə parçalanmış ölkəni öz sıralarına qəbul etmək istəmir.




### Ukrayna - əməliyyatın "mövzusu" və ya "obyekti"?

Bundan əlavə, daha bir mühüm sual ortaya çıxır ki, onun cavabı əsasən döyüş meydanının pərdə arxasında baş verənlərin reallıqlarını ortaya qoyur. Çoxlarını maraqlandırır ki, Ukrayna münaqişə "qaynar fazaya" daxil olduqdan sonra, yəqin ki, Qərblə Rusiya arasında hansısa gizli sövdələşmənin predmetinə çevrilib? Yəni, Ukrayna müstəqil subyekt deyil, Rusiya ilə Qərbin (ilk növbədə ABŞ) alver obyektidir və bildiyiniz kimi, "obyekt"dən çox az şey asılıdır! Bu yaxınlarda Rusiya və ABŞ təhlükəsizlik xidmətlərinin yüksək rütbəli nümayəndələri, o cümlədən MKİ və Rusiya kəşfiyyatının rəhbərləri Ankarada görüş və danışıqlar aparıblar. Hər iki tərəf bildirib ki, bu görüşdə yalnız "nüvə qarşısının alınması" məsələləri müzakirə olunub və Ukrayna mövzusu qaldırılmayıb. Lakin nə dünya ictimaiyyəti, nə də hətta Zelenski özü və ətrafı şübhə etmirlər ki, bu görüşdə tərəflər çox mühüm bəzi məsələləri müzakirə ediblər. Ukrayna prezidenti üçün ölkəsinin Kremllə Ağ Ev arasında sövdələşmə predmeti olması reallığını qəbul etmək çox çətindir: tezliklə bu sövdələşmə hansısa strateji sövdələşməyə çevriləcək və sonra münaqişə öz-özünə bitə bilər. Bunun yaxın və ya daha uzaq gələcəkdə baş verəcəyini heç kim bilmir. Ancaq çoxları üçün aydındır ki, Ukraynanın indiki vəziyyətində taleyi heç bir halda bu ölkənin rəhbərliyi tərəfindən müəyyən edilmir. Başqa sözlə, Ukrayna münaqişəyə NATO-nun təhriki ilə daxil olub və beləliklə, əlbəttə ki, daha hansı yolla - sülhə, yoxsa döyüşün davam etdirilməsinə gedəcəyinə qərar verə bilməz. Axı bu məsələ - sülh danışıqlarına getmək, yoxsa ondan imtina etmək - Kiyevdə deyil, NATO-da həll olunur. Və bu, hərbi münaqişə vəziyyətində olan ölkənin ən pis taleyidir - bundan sonra nə edəcəyini özü həll edə bilməmək: döyüşləri davam etdirmək, danışıqlara başlamaq və ya hansısa aralıq vəziyyətdə olmaq.



### Və yenə Kissinger!

Həmçinin son günlər, həftələr, hətta aylar ərzində ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincerin adının Ukrayna problemi ilə bağlı səsləndirilməsi Ukrayna rəhbərliyini xüsusi narahat edən amil olub. Keçmiş yüksək rütbəli amerikalı siyasətçi, indi daha çox politoloq və "strateji analitik" kimi fəaliyyət göstərən Kissincer Ukraynadakı münaqişənin nizamlanması üçün bir sıra təkliflər irəli sürüb. Təkliflər son dərəcə qeyri-müəyyən cavabla qarşılanıb: Ukrayna rəsmilərinin narazılığından tutmuş Avropada, hətta Ağ Evdə əhəmiyyətli susqunluğa qədər. Qısaca olaraq Kissincerin təqdim etdiyi planda iki əsas məqam var idi: birincisi, Ukrayna neytral ölkəyə çevrilməli və eyni zamanda "NATO-ya daxil olmaq istiqamətində hərəkətini" unutmalıdır, ikincisi, Rusiyanın tərkibində elan edilmiş dörd rayonun, yəni Donetsk, Luqansk, Zaporojye və Xerson vilayətlərinin qaytarılması müqabilində Ukrayna Krım yarımadasını Rusiyanın bir hissəsi kimi rəsmən tanımalı və digər BMT-yə üzv dövlətlər də bunu etməlidir. Onu da qeyd etmək lazımdır ki, Rusiya rəhbərliyi də Kissincer planı ilə bağlı ən minimal şərhlər verməyə üstünlük verib.

Ancaq hər kəsə aydındır ki, Ukraynada sülhün bərqərar olması məhz "Krımın Rusiyanın bir hissəsi kimi tanınması", eləcə də NATO-ya "üzv olmaması"dır. Ağ Evlə ən son təkbətək danışıqları zamanı Zelenski prezident Baydenə Rusiya və ABŞ arasında Ukrayna ilə bağlı mümkün "sövdələşmə" barədə danışıqdan narahat olduğunu bildirib. ABŞ prezidenti yenə də "gizli sövdələşmə" ilə bağlı sözlərin üstündən sükutla keçib, lakin Zelenski və onun tərəfdarları tərəfindən bəyəniləcəyi təqdirdə Ukrayna ilə bağlı istənilən təşəbbüsü, istənilən "dinc nizamlanma xarakterini" qəbul etməyə sadiq olduğunu bildirib. Ancaq yenə də hər kəsə aydındır ki, Baydenin bu bəyanatı, daha doğrusu, Ukraynanı sakitləşdirmək cəhdi kimi görünür, çünki Ukrayna sülh və ya Rusiya ilə qarşıdurma məsələlərində müstəqil deyil, "tabe" aktor statusuna malikdir.

Aydındır ki, Baydenin vədləri rəsmi Kiyevi heç də sakitləşdirməyib - onlar Ukrayna əraziləri və onun siyasi kursu ilə bağlı pərdəarxası sövdələşmələrin aparılmasından təəssüflənməkdə davam edirlər. Sazişin bağlanması ilə başa çata biləcək sövdələşmə, burada yalnız minimum proqram Krımın əbədi olaraq ondan ayrılması və Şimali Atlantika Alyansına gedən yolun əbədi olaraq unutulması ola bilər. Amma bu sövdələşmədə işlər maksimum proqrama çatmasa belə, Ukrayna istənilən halda uduzan tərəf olacaq: o, dağıdılanları bərpa etməyə, həyati vacib infrastrukturunun bir hissəsini itirdiyi böhrandan çıxmaq üçün illər sərf etməli olacaq. Hansı ki, o infrastrukturlar, ümumiyyətlə, Ukrayna üçün həyati əhəmiyyətli idi. Eyni zamanda, ABŞ və Böyük Britaniya hökumətləri, ardınca əksər Qərb ölkələri hələ də Ukraynanın Avrasiyanın xəritəsində "strateji baxımdan kor nöqtə" olaraq qalmasını təmin etməyə çalışacaqlar. Qərb heç vaxt razılaşmayacaq ki, Ukrayna (tam və ya qismən) Rusiyanın təsir dairəsinə qayıtsın. Əks təqdirdə bu vəziyyət Qərblə Rusiya arasında yeni gərginlik ocağının yaranmasına səbəb ola bilər.

***V.VƏLİYEV***

# HULUSİ KILIÇ: "Hər kəs öz işinə baxsın və problemlərini həll etməyə çalışsın"



"Fransanın paytaxtı Paris yanğın yerinə çevrilib, çünki burada gənclər etiraz aksiyası həyata keçirir və Parisdə bir sıra binaları yandırırlar. Oradakı gənclər yeni pensiya qanununu istəməyənlərlə həmfikirdirlər". Bu sözləri SİA-ya açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri, İMZA Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə nümayəndəsi Hulusi Kılıç Fransada həyata keçirilən etiraz aksiyalarında baş verənlərlə bağlı öz fikirlərini bölüşdüyü zaman bildirib.

O qeyd edib ki, Fransa öz daxilindəki proseslərə baxmadan digər məsələlərə diqqət ayırır: "Təbii ki, bura Qarabağ məsələsi də daxildir. Fransa ikili siyasət həyata keçirir. Son günlərdə Fransada meydana gələn hadisələr eyni zamanda ötən illərdə "sarı jiletlilər" hərəkatı və s. baş verən digər proseslər onu göstərir ki, özünü demokratik və azad bir ölkə kimi qələmə verən Fransa yalnız bunları sözdə həyata keçirdir".

Hulusi Kılıç Fransanın insan hüquqlarına önəm verən, azad və demokratik bir ölkə olmadığını deyib: "Çünki biz baş verənlər nəticəsində bütün bunların tərsini görürük. Hazırda Fransadakı gənclər təşkilatları küçələrə axışaraq etirazlarını bildirirlər. Bunlar onu sübut edir ki, Fransa öz problemlərini həll etmək yerinə Qarabağla maraqlanır. Qarabağla bağlı bizim heç bir problemimiz yoxdur. Azərbaycanın eko-fəalları öz vətəninin hüquqlarını tələb edərək, torpaqlarına sahib çıxırlar. Lakin bəziləri bunları bilmədən və görmədən Azərbaycanın əleyhinə xəbərlər verərək, açıqlamalar paylaşır. Bizdə Türkiyə dövləti olaraq Azərbaycana qarşı olan bütün fikirləri qınayırıq. Hər kəs öz işinə baxsın. Bizim torpaqlarımızla maraqlanmasınlar, öz dövlətlərinin problemlərini həll etməyə çalışsınlar".

***Banuçiçək Hüseynli***

# Hansı formada təhsil almalıyıq: Qiyabi, yoxsa əyani?




***Ali təhsil müəssisələrində təhsilalma formaları əyani və qiyabi olmaqla iki cür müəyyən edilir. Tələbələrin əksəriyyəti əyani təhsil formasına üstünlük verir, lakin buna baxmayaraq qiyabi təhsili seçənlər heç də azlıq təşkil etmir. Qiyabi təhsil tələbələrə oxumaqla yanaşı, hər hansı bir sahədə işləməyə də şərait yaradır.***



Qiyabi təhsil formalarından biri kimi aktuallığını itirməkdədir. Çünki texnikanın, texnologiyaların inkişafı əyani təhsildən kənar təhsilalma imkanlarını artırıb. Hazırda distant (məsafədən) təhsil yolu ilə təhsillənməyə geniş imkanlar açılır. Nöqsanının olub-olmamasından asılı olmayaraq qiyabi təhsil elektron sistemlər dövründə sıradan çıxır. Buna görə də elektron-texnoloji imkanları olan ölkədə (insanlarda və müəssisələrdə) distant təhsilə ehtiyac qalmır. Bu gün bəziləri belə fikirdədirlər ki, hər gün ali təhsil müəssisələrinə gedib-gəlmək vacib deyil, çünki lazımi bilikləri asanlıqla əldə etmək olar.



SİA mövzu ilə bağlı araşdırma aparıb.

Təhsil müəssisəsində yeni tanışlıqlar və əlaqələr yaranır və bu əlaqələr qlobal düşünməyi öyrədir. Qazanılmış lazımi bilik və bacarıqlar sonradan praktikada faydalı olur. Əyani təhsildə birincisi oriyentasiya sessiyasıdır ki, bu sessiya zamanı tələbələr mühazirələrdə, praktiki və laboratoriya məşğələlərində iştirak etməklə, lazımi materialları müstəqil öyrənməklə müəyyən bilik bazası əldə edirlər. Qeyd etmək vacibdir ki, bütün fənlər təsdiq edilmiş plana uyğun şəkildə öyrənilir. İkinci mərhələ imtahan və testlərin verilməsidir. Məhz burada tələbənin materialı necə mənimsədiyi yoxlanılır. Hazırda qiyabi tələbə obrazı kəskin şəkildə dəyişib. Əvvəllər qiyabi təhsil prestijli hesab edilmirdisə, bu gün işəgötürənlər təhsil formasından daha çox universitetin nüfuzuna diqqət yetirirlər. Təcrübə göstərir ki, işi və təhsili məharətlə birləşdirən məqsədyönlü və məsuliyyətli qiyabi tələbələrdən fərqli olaraq, əyani təhsil alan məzunlar heç də həmişə yaxşı bilik və bacarıqlarla öyünə bilmirlər.



## Distant təhsilin üstünlükləri

Eyni anda bir neçə işi görməyin nə qədər çətin olduğunu bilirik. İşlə təhsilin birləşməsi istisna deyil. Bir gün ərzində işə vaxt ayırmalı, məşq etməli, ailəyə diqqət yetirməli oluruq. Distant təhsil fənləri, sürətli keçid və vaxtınızı düzgün idarə etməyi öyrədir. Tələbə başa düşməlidir ki, təhsil prosesinin uğuru tamamilə özündən asılıdır. Müəllimlər tərəfindən gündəlik nəzarət olmadan belə müstəqil olaraq təlim cədvəli hazırlamaq lazımdır. Burada insanın məsuliyyət, özünü idarə etmək qabiliyyəti kimi keyfiyyətləri təzahür edir. Qiyabi təhsillə distant təhsilin fərqi ondan ibarətdir ki, tələbə universitetdən kənar uyğun olaraq müstəqil təhsil alır. İmtahanlar zamanı institutda mühazirələrə və seminarlara gedir, sessiyada iştirak edir. Üstünlüklərə gəldikdə isə təhsil almaq daha ucuz başa gəlir, eyni zamanda həm işləyə, həm də oxuya bilir, tələbələrdən daha erkən karyera qurmaq imkanları verir.

Qiyabi təhsilin mənfi cəhətlərinə gəldikdə isə təqaüdlər və ya digər güzəştlərdən kənar qalır.

Karyera qurmaq tələbələrdən qısa müddətdə böyük həcmdə materialı mənimsəmək, nəzarət və kurs işlərini tamamlamaq tələb olunur. Bütün tələbələrin əsas problemi buraxılış layihəsini uğurla başa çatdırmaqdır.

Elm və təhsil üzrə ekspert Səbuhi Abdullayev: "Əvvəla əyani, yəni ənənəvi təhsilin qiyabi təhsildən üstünlüyü nədir sualına baxsaq, burada tək təhsil deyil, təhsil alanları davranış qaydaları, dinləmə vərdişləri, müəllim nitqini və jestləri daha tez qavramasına şərait yaradır. Onlayn təhsil formasında isə sərbəstlik daha çox olur, bu da öz növbəsində dərsə olan diqqəti aşağı salır və yayınma hallarını çoxaldır. Digər üstünlüklərinə də toxunmaq olar, məsələn yanındakı yoldaşla anında müzakirə apararaq dərsi daha yaxşı anlaya bilər. Əyani təhsil zamanı tələbənin mimikasından müəllim bilir ki, hansı tələbələr dərsi yaxşı başa düşməyib və onlara başqa üsulla izah etməsi bu problemi həll edə bilir. Bütün bunlarla yanaşı, qiyabi təhsilində üstünlükləri müasir dövrdə qaçılmazdı. İlk növbədə vaxt və əlavə xarclər azad olur. Eyni zamanda təhsilə əl çatanlıq artır. Məsələn ucqar bir məktəbdə kimya müəllimi olmazsa onlayn platformadan bu fənn üzrə kifayət qədər mütəxəssis tapmaq olar. Başqa üstünlüklərindən birinə baxsaq, məsələn Amerikanın hansısa universitetinə onlayn daxil olub təhsil almaq olar. Hansı ki, kimlərsə üçün onlayn mümkün deyil. Biz hələ ki, ənənəvi təhsilə üstünlük veririk, ancaq yaxın illərdə onlayn və qiyabi təhsilin üstünlüklərinin artacağı şübhə doğurmur".

***Havar Şəfiyeva***

# Avropa Parlamenti adi hüquqdan da bixəbərdir (?!)



## Yaxud, qurumun Cənubi Qafqaz üzrə nümayəndəliyinin rəhbəri Marina Kalyurandın məqsədi nədir?

***Avropa Parlamentinin növbəti dəfə Azərbaycan əleyhinə qətnamə çıxarması və xüsusilə adıçəkilən qurumun Cənubi Qafqaz üzrə nümayəndəliyinin rəhbəri, əslən Estoniyadan olan Marina Kalyurandın əsassız ittihamları bir daha göstərir ki, sanki Avropa Parlamenti əvvəl-başdan öz üzərinə belə bir missiya götürüb: istənilən halda Azərbaycan dövlətinə qarşı qarayaxma kampaniyası aparmaq və bu kampaniyada birtərəfli mövqe nümayiş etdirməklə, yaxud Ermənistanın işğalçılıq siyasətinə don geyindirmək vasitəsi ilə Qarabağdakı separatizmi dəstəkləmək!***



### Estoniyada yaşayan ruslar Marina Kalyuranddan tələb etsələr ki...




Beləliklə, Avropa Parlamentinin nədənsə erməni lobbisinin ətəyindən bərk-bərk yapışan deputatları rəsmi Bakının tam hüquqi əsasda irəli sürdüyü bəyanatına don geyindirməyə çalışır. Nədir ki, rəsmi Bakı bildirib - Qarabağdakı ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul edərək ölkənin digər vətəndaşları kimi bütün hüquqlara malik olmalı, ya da ölkə ərazisini tərk etməlidirlər.

Maraqlıdır, görəsən Estoniyada yaşayan ruslar Marina Kalyuranddan tələb etsələr ki, onlara müstəqillik verilsin və ruslar eston qanunlarına tabe olmayaraq özlərinə məxsus qanunlarla yaşamağa başlasınlar - o, buna razı olarmı?

Onu da qeyd edək ki, Marina Kalyurand təhsilinə görə hüquqşünasdır və həmin təhsilinə görə ən azından bilməlidir ki, onun separatçıları dəstəkləməsi ciddi şəkildə miqrasiya qanunlarına ziddir, üstəlik, istənilən ölkədə separatizmi bu və ya digər üsullarla dəstəkləmək həmin ölkələrin qanunları tərəfindən cinayət kimi qəbul olunur. Eləcə də, xanım Kalyurandın vətəni Estoniyada da. Hərgah belə bir cəhdlər olsa belə, separatizmə meyilli şəxslər minimum deportasiyaya məruz qalırlar, maksimum isə cinayət məsuliyyətinə cəlb edilirlər.

Ona görə də, estoniyalı başbilən xanım həqiqəti dərk etməli və bilməlidir:

**1.** Hazırkı məqamda Azərbaycan Respublikasının Qarabağ regionunda qalan və Rusiya sülhməramlıları kontingentinin müvəqqəti nəzarəti altında olan ermənilər Azərbaycan Respublikasının qanunlarına tabe olmadıqlarına görə ölkənin miqrasiya-viza qanununu pozmuş olurlar.

**2.** Azərbaycan rəhbərliyinin həmin ermənilləri ya ölkə vətəndaşlığını qəbul etməli, ya da ərazilərimizdən çıxmalı olduqlarını bildirməsi qanunauyğun tələbdir. Üstəlik, həmin ermənilərin hazırkı dövrə qədər qanun pozuntularının belə üzərindən keçilir ki, bu faktın özü də Azərbaycan dövlətinin Qarabağ ermənilərinə verdiyi böyük və humanizm prinsiplərinə söykənən imtiyazdır!

**3.** Və bu gün "Dağlıq Qarabağ Respublikası" adlanan qurum heç bir halda hüquqi qüvvəyə malik deyil. Çünki həmin qondarma qurumu nəinki dünya birliyi, heç Ermənistanın özü də tanımır. Bu baxımdan, orada yaşayan və fəaliyyət göstərənlər də hazırda qanun pozucularıdırlar.

### Avropa Parlamenti sadəcə sözdə "insan haqlarından" dəm vurur, reallıqda isə insan haqları onların marağında olmayan bir məsələdir

Bu gün Azərbaycana tərəf dil uzadan xanım Marina Kalyurand təəssüf ki, 30 il işğala, talana, şəhər və kəndlərinin yer üzündən silinməsinə, maddi-mənəvi irsinin dağıdılmasına, yüz minlərlə azərbaycanlının öz evlərindən-eşiklərindən qovulmalarına əhəmiyyət verməyənlərdən biridir və belə görünür ki, Avropa Parlamenti sadəcə sözdə "insan haqlarından" dəm vurur, reallıqda isə insan haqları onların marağında olmayan bir məsələdir. Halbuki, Azərbaycanın ərazi bütövlüyünü Qarabağ da daxil olmaqla elə onun öz ölkəsi - Estoniya da tanıyır!

Və biz yalnız Qarabağdan deyil, Ermənistandan zor-gücə yolu ilə qovulmuş yüz minlərlə azərbaycanlının hüquqlarının pozulmasından, öldürülməsindən, vəhşiliklərə məruz qalmasından danışmırıq. Danışmırıq ki, birdən xanım Kalyurandın və digər avroparlament deputatlarının "xətirlərinə" dəyər...

### Korrupsiyaya bulaşmış Avropa Parlamenti: Marina Kalyurand erməni lobbisinin pullarına satılıb (?)

Sonda - Ermənistanın qanunsuz hərbi birləşmələrinə məxsus silahlılar, texnikalar bu gün də Qarabağda qalmağa davam edir. Məhz Laçın yolu vasitəsi ilə çoxsaylı minalar RSK-nın nəzarətindən keçirilərək sonradan Azərbaycana qarşı işlədilib. Ölən və yaralananların, əlil qalanların sayı isə 2020-ci ilin 10 noyabrından sonra yüzlərlə ölçülür. Bəs bu barədə niyə danışılmır



Görəsən, Marina Kalyurand ağına-bozuna baxmayaraq, ağlına gələni dilinə ötürürsə, təkcə bu faktın özü belə qənaətə gəlməyə zəmin yaratmırmı ki, o Avropadakı erməni lobbisinin pullarına satılıb? Və ya bir müddət əvvəl kirli korrupsiya əməli ilə ifşa edilən Avropa Parlamentinin rəsmiləri bu rüsvayçılıqdan nəticə hasil etməyiblərmi?

Etməyiblərsə, bu zaman həmin qurumun Marina Kalyurand timsalındakı deputatlarının nə demələrinin, hansı qərar vermələrinin də Azərbaycan dövləti və xalqı üçün heç bir əhəmiyyəti yoxdur!

***Rövşən RƏSULOV***

## Boşanmaq üçün hara və necə müraciət etməliyik?



"Boşanmaq istəyən tərəf ilk öncə Mediasiya Şurasının müvafiq mediasiya təşkilatlarından birinə müraciət etməlidir. Mediasiya-mübahisələrin məhkəmədənkənar həlli üsuludur. Mediasiya zamanı tərəflər mediatorun (vasitəçinin) köməyi ilə digər tərəfin mövqeyi barədə daha çox məlumat qazanmaqla, öz mövqeyini yenidən qiymətləndirir və barışmaq imkanlarını araşdırır". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.

Onun sözlərinə görə, qanunvericiliyə edilmiş yeni dəyişikliyə əsasən, ailə, əmək və kommersiya mübahisələrində ilkin mediasiya sessiyasında iştirak etmədən birbaşa məhkəməyə müraciət etmənin heç bir mənası yoxdur: "Belə ki, mediasiyada iştirak etmədiyiniz üçün məhkəmə nikahın pozulması barədə ərizənizi geri qaytaracaq.

İlkin mediasiya sessiyasında iştirak etmisinizsə, yalnız bundan sonra aidiyyatı üzrə nikahın pozulması ilə bağlı iddia ərizəsi ilə məhkəməyə müraciət edə bilərsiniz. Nikahın pozulmasına görə dövlət rüsumu 100 AZN təşkil edir. Mediasiya xərclərini ödəyən tərəf ödədiyi xərc həddində dövlət rüsumundan azad edilir".

Vəkil sözlərinə belə davam edib: "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 19.1. maddəsinə əsasən, bu məcəllənin 17.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olduqda və ya ər (arvad) nikahın pozulmasına razı olmadıqda nikah məhkəmə qaydasında pozulur. Yəni, ər-arvadın yetkinlik yaşına çatmayan uşağı yoxdursa, ümumiyyətlə övladları yoxdursa, övladları 18 yaşından yuxarıdırsa, onlar məhkəməyə müraciət etmədən də rahat bir şəkildə nikahlarının bağlandığı müvafiq Qeydiyyat Şöbəsində və ya "ASAN" xidmət mərkəzlərində ərizə yazaraq boşana bilərlər.

Ailə Məcəlləsinin 17.2-ci maddəsinə əsasən, yetkinlik yaşına çatmayan ümumi uşaqlarının olub-olmasından asılı olmayaraq ərin və ya arvadın ərizəsi əsasında nikaha xitam verilməsi aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanında aparılır:

**1)** ər (arvad) məhkəmə qaydasında itkin düşmüş hesab edildikdə

**2)** ər (arvad) məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;

Yəni bu iki halda da tərəflərdən biri məhkəməyə müraciət etmədən boşana bilər".

***Ayşən Vəli***



# Bir xanım, bir həkim, bir həyat yoldaşı, bir ana tanıdıq



***Bəli, elə bir xanım, elə bir həkim, elə bir həyat yoldaşı, elə bir ana tanıdıq ki, bu gün qarşımızda bütün bu titulların üstün və gözəl cizgilərindən yaranmış bir portret var: Zərifə xanım Əliyevanın portreti. Bu portret nur saçır ətrafa. Ötən bir əsrdə ən gözəl xanım, ən bacarıqlı həkim, ən dəyərli həyat yoldaşı və ən gözəl ana ömrünü yaşayan və bu gün hər bir azərbaycanlı qadın üçün nümunəyə çevrilən Zərifə xanım Əliyevanın nurlu həyat yolu ətrafa işıq yayır o portretdən. Baxdıqca qürur duyur, nə gözəl bir insan tanımışıq, deyirik.***

Bütün keyfiyyətləri ilə əsl Azərbaycan xanımı, görkəmli və eyni zamanda ən yüksək insani dəyərlərə malik həkim, Ümummilli Liderimiz Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, ölkəmizə müzəffər sərkərdə, lider bəxş edən qayğıkeş ana Zərifə xanım Əliyevanın bu il 100 yaşı tamam olur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" 3 noyabr 2022-ci il tarixdə Sərəncam imzalamışdır. Sərəncamda deyilir: Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.

## İşıqlı ideallara doğru

Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Zərifə Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmış, zəngin təhsil ənənələri olan ziyalı ailəsinin özünəməxsus tərbiyə üsulları onu hələ uşaq yaşlarından, məktəb illərindən etibarən elmə, işıqlı ideallara doğru istiqamətləndirmişdi.

O, 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdu. Ali təhsil almaq məqamında Zərifə Əliyevanın həkimlik sənətini seçməsi atası, tibb elmləri doktoru, professor Əziz Əliyevin yolunu davam etdirmək arzusundan doğmuşdursa, göz həkimliyini ixtisas kimi seçməsi onun xeyirxahlığından, işıqlı insan olmasından irəli gəlmişdi. Tələbəlik həyatının ilk günlərindən fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, iti məntiqi təfəkkürü, təvazökarlığı və sadəliyi, insanpərvərliyi və vətənpərvərliyi ilə tələbələr arasında hörmət qazanmış, professor-müəllim heyətinin diqqətini cəlb etmişdi.

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında həmişə yüksək fikirdə olublar. Akademik A.Nesterov: "Zərifə Əliyeva böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm".

Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru K.Trutneva: "Bu cür tədqiqatlar həcminə və vacibliyinə görə seçilsə də, çox zəhmət tələb etsə də, sosial-iqtisadi baxımdan əvəzsizdir. Bu nadir tədqiqatlar nəticəsində zərərli istehsal sahələrində çalışanların iş şəraitini yaxşılaşdırmaq üçün metodiki tövsiyələr işlənib hazırlanmış, istehsalata tətbiq edilmişdir. Zərifə xanımın apardığı tədqiqatların əsas mahiyyəti də məhz bundan ibarətdir".

Tibb elmləri doktoru, professor Z.Skripniçenko: "Zərifə xanımın elmi maraq dairəsi çox geniş idi. O, bir ümumi dəftərə yeni kitab üçün nəzərdə tutduğumuz fikirləri qeyd etmişdi. Bunlar əsasən toksik kataraktalara və toksik qlaukomalara həsr olunmuş elmi işlərdən, tələbələr və oftalmoloq həkimlər üçün nəzərdə tutulan məruzələrdən ibarət idi".

## Həkim insanlara günəş qədər lazımdır

Tələbəlik illərində fundamental tibbi biliklərə dərindən yiyələnən Zərifə xanım Əliyevanın qəlbində insanların gözlərinə nur bəxş etmək amalı baş qaldırmışdı və o, öz gələcək fəaliyyətini tibbin oftalmologiya sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuşdu. Görünür, son dərəcə zəriflik və incəlik, həssaslıq və nəciblik tələb edən göz həkimliyi Zərifə xanımın təbiətindəki nadir xüsusiyyətlərə daha yaxın idi. Zərifə xanımın timsalında bir daha sübuta yetirildi ki, peşəsini ürəkdən sevən həkim, həqiqətən, xarüqələr yaratmaq iqtidarındadır. Zərifə xanım ilk növbədə həkim idi, bu peşəni çox uca tuturdu. Həkimi günəşə bənzədərək deyirdi: "Həkim insanlara günəş qədər lazımdır". O, ötən əsrin 50-ci illərində öz xeyirxah sənəti ilə əsl vətəndaş mövqeyində dayanaraq xalqımızın bəlasına çevrilmiş traxoma xəstəliyinin qarşısını almaq üçün ciddi və məqsədyönlü müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi istiqamətində mübarizəyə başlamışdı. Zərifə xanımın başlıca məqsədi nəyin bahasına olursa-olsun, tezliklə Azərbaycanda traxoma xəstəliyini törədən səbəbləri aşkar edib aradan qaldırmaq, onun optimal müalicə üsullarını tapmaq, müvafiq profilaktik tədbirləri vaxtında həyata keçirməkdən ibarət idi. İnsanları korluq əzabından qurtarmaq zərurətindən doğan bu şəfqətli tədbirlərin həyata keçirilməsi ağır zəhmət və uzunmüddətli vaxt tələb edirdi. Zərifə xanım Azərbaycanın bütün rayonlarını gəzərək traxoma ocaqlarını aşkar etmiş, özünün tərtib etdiyi müalicə üsullarını həyata keçirmişdir. Onun mövcud müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiki hesab edilən sintomisindən istifadə etməklə müalicə üsullarını həyata keçirməsi bu ağır xəstəliyin qarşısının alınmasında başlıca rol oynamışdır.

Elmi-tədqiqat mövzusu kimi də Zərifə xanım Əliyevanın göz xəstəliklərinin müasir müalicə üsullarına müraciət etməsi insanlara və onları əhatə edən mühitə daha çox işıq gətirmək qayəsinin ifadəsidir. Zərifə xanım Əliyeva 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Namizədlik dissertasiyası kimi bu mövzunun seçilməsi geniş yayılmış traxoma xəstəliyinin ən intensiv müalicə üsullarının müəyyən olunmasına və tətbiq edilib müsbət nəticələr alınmasına şərait yaratmışdır.

Elmi fəaliyyətini real həyatla üzvi surətdə əlaqələndirən Zərifə xanım Əliyeva özünün namizədlik dissertasiyası ilə həm tibb elmini yeni ideyalar və metodlarla zənginləşdirmiş, həm də yüzlərlə insana işıq bəxş etmişdir. Hələ XX əsrin 50-ci illərində Zərifə xanım tərəfindən tibb elmi üçün kəşf edilmiş, elmi cəhətdən əsaslandırılmış müalicə üsulları aradan illər keçməsinə baxmayaraq, indi də tətbiq edilir və insanlara nur bəxş edir.

## Dosentlikdən akademikliyə qədər

Zərifə xanım Əliyeva ciddi elmi-tədqiqat işləri, mürəkkəb cərrahiyyə əməliyyatları ilə yanaşı, elmi-pedaqoji fəaliyyətini də uğurla davam etdirmişdir. Görkəmli alim 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dəvət olunmuşdur. Həmin kafedranın müdiri vəzifəsində çalışan Zərifə xanım bu institutda dosentlikdən akademikliyə qədər yüksəlmişdir.

1977-ci ildə Bakıda Zərifə Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Bu plenum alimin daha bir keyfiyyətini qabarıq şəkildə üzə çıxarmış, tədbirin gözlənildiyindən də yüksək səviyyədə keçirilməsi Zərifə xanım Əliyevanın təşkilatçılıq bacarığının təzahürünə çevrilmişdir.




Bakıda ilk dəfə olaraq belə bir ittifaq miqyaslı plenumun keçirilməsi Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan vermişdir. Zərifə xanım oftalmologiya elminin inkişafı yolunda əldə etdiyi nailiyyətlərə, görmə orqanının peşə patologiyası sahəsində apardığı uğurlu elmi-tədqiqat işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının Akademik M.Averbax adına mükafatına layiq görülmüşdür.

Zərifə xanım Əliyeva oftalmologiya sahəsində yeni istiqamətlər üzrə tədqiqatlar aparmış, bununla bağlı görülən müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" əsərləri bu qəbildəndir.

Görkəmli alimin qələmə aldığı "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları elmi ədəbiyyatlardır. Gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların bir şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edən bu əsərlər heç vaxt aktuallığını itirməyəcəkdir.

Zərifə xanım Əliyevanın "Azərbaycanın kimya sənayesi müəssisələrində işçilərdə görmə orqanının vəziyyəti" mövzusundakı doktorluq dissertasiyası tibb elminin cəmiyyətlə əlaqəsi baxımından böyük və qətiyyətli addım idi. O, sadəcə, görmə orqanlarındakı xəstəlikləri deyil, istehsalatda baş verən ictimai və tibbi prosesləri vəhdətdə öyrənmiş, Azərbaycanda ilk dəfə olaraq kimya sənayesi müəssisələrində tibbi laboratoriyalar yaratmışdı. Görkəmli alim uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisələrində böyük miqyaslı elmi-tədqiqat işləri aparmış, zərərli maddələrin təkcə görmə orqanlarına deyil, eyni zamanda, digər orqanlara təsirini öyrənmişdir. Aparılan səmərəli elmi-tədqiqat işləri, tətbiq edilən düşünülmüş üsullar həm kimya texnologiyası işçilərinin göz xəstəliklərinin qarşısını almış, həm də istehsalat mühitinin zəhərli maddələrdən təmizlənməsinə şərait yaratmışdır.

Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarla elmlər doktorunun və namizədinin rəhbəri olmuş və böyük bir elmi məktəb yaratmışdır. Akademik Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Akademik Zərifə xanım Əliyeva göz xəstəlikləri mütəxəssisi kimi Azərbaycanda bu sahədə elmin əsas yaradıcılarındandır. O, göz xəstəliklərinin müalicəsi problemini elmi məktəb səviyyəsinə çatdırmışdır.

Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən Ulu Öndərimiz deyirdi: "Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın".

## Xəstənin əzablarını öz əzabları bilən həkim

Zərifə xanımın gözəl insani dəyərlərə malik olmasını onun daim həkim-xəstə münasibətinə xüsusi diqqət yetirməsində görmək mümkündür. O, dəfələrlə demişdir ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, onun orqanizminin xəstəliyə qarşı müqavimətini artırır.

Zərifə xanım mətbuatda həkim etikası problemlərinə dair maraqlı məqalələr dərc etdirmişdir. Həmin məqalələrdən birində yazırdı: "Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Vicdan əsas hakiminizdir. Ən çətin məqamda və ən xoş saatımızda o, bizimlə üzbəüz dayanıb soruşacaq: Sənin ağ xalat geyinməyə haqqın varmı?".

Bəli, xəstənin ümid yeri həmişə həkim olub. Onun gözləri daim həkimini-onun şəfası ola biləcək insanı axtarıb. Həkim xəstənin son ümididir. Və xəstənin həkimdən gözlədiyindən böyük gözlənti ola bilməz. Bu səbəbdən də Zərifə xanımın dəyərli kəlamları bir tərəfdən onun iç dünyasının həssaslığının, insani keyfiyyətlərinin, gözəl duyğularının göstəricisidirsə, digər tərəfdən də bir həkimlik məktəbinin dərsidir. Hər bir həkim üçün gərəkli olan dərsdir. Bütün dövrlərdə həkimlərinin öyrənməli, yaddaşlarına həkk etməli olacağı dəyərdir. Yalnız bu dəyərləri əxz etməklə əsl həkim olmaq, Zərifə xanım Əliyeva kimi həm tarixdə, həm də qəlblərdə yaşamaq olar.

## Əsl məhəbbət haqqında

Zərifə xanım Əliyevanın bu gün baxdıqca baxdığımız portretində görünən əsas cizgilərdən biri də onun sədaqətli, vəfalı ömür-gün yoldaşı olmasıdır. Zərifə xanım Əliyeva ona İlahi bəxşişi olan nuru həm ailəsinə, həm övladlarına, həm peşəsinə, həm də həyatda insanlarla münasibətinə o qədər bərabər şəkildə paylaya bilmişdi ki, ətrafında olanların hər biri bu nurun işığında onu ali bir insan kimi gördü. Gördü ki, o, həm ailəsi, həm də cəmiyyət üçün dəyərlidir. Dəyərli olduğu qədər də səmimidir. Bu səmimilik isə onun sadəliyindən, həssaslığından və ailəsində aldığı tərbiyədən irəli gəlirdi.

Deyirlər ki, hər bir kişinin arxasında güclü bir qadın vardır. Bəli, çox yerində deyilmiş fikirdir. Ümummilli Liderimiz Heydər Əliyevin ömür-gün yoldaşı kimi Zərifə xanım Əliyeva Ulu Öndərin Azərbaycanın inkişafı sahəsindəki qətiyyətli mübarizəsinə etibarlı dayaq olmuşdur. Daim yüksək vəzifələrdə çalışan ulu öndərin, iki övladının və xəstələrinin qayğıları Zərifə xanımın mənalı ömrünün eyni ahəngli akkordları olmuşdur. Bütün bunlar haqqında Ulu Öndər Heydər Əliyev deyirdi: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar".

Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva haqqında Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filminə tamaşa edəndə baxmayaraq ki, orta nəsil bu böyük şəxsiyyətlərin nümunəvi, gözəl, səmimi münasibətlərinin şahidi də oldular, lakin bu film insanın qəlbində dəruni hissləri oyadır. Ümummilli Liderin Zərifə xanımı xatırlamasındakı bütün cümlələr qarşısında onun ömür-gün yoldaşına bəslədiyi müqəddəs məhəbbətə heyran qalırsan. Bəli, əsl məhəbbət budur: illərin dəyişə bilmədiyi məhəbbət...



## Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur

Prezident İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdir: "Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi.

Ardı Səh.10

# Bir xanım, bir həkim, bir həyat yoldaşı, bir ana tanıdıq



**Əvvəli-Səh-9**

Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur".

Ömrün mənasını xalqına xidmətdə görən Zərifə xanım Əliyeva həm də o cəhətdən xoşbəxt idi ki, xalqımız, dövlətimiz üçün gərəkli olan iki övladın anası idi. Zərifə xanım Azərbaycana onun xilaskarını bəxş etmişdir. 30 illik işğal altında qalan torpaqlarımızın qurtuluşçusunu bəxş etmişdir. Hər bir Azərbaycan vətəndaşının Prezidenti olmağı bacaran, müzəffər sərkərdə, sevilən lider olan Ali Baş Komandanımızı bəxş etmişdir.

Prezident cənab İlham Əliyev bu gün Azərbaycanı dünya dövlətləri içərisində sözü və yeri olan bir ölkə kimi tanıdıb. Heydər Əliyev ideyalarını davam etdirməklə Azərbaycanı inkişaf etmiş ölkələrdən birinə çevirib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, Zərifə xanımın sevimli gəlini Mehriban xanım Əliyeva onun ənənələrini davam etdirir. Hər iki ailədən aldığı yüksək dəyərləri öz şəxsiyyətində birləşdirən Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördükləri işlər, xeyirxah əməllər bu gün Azərbaycan qadınının yüksək intellektual səviyyəsini və vətənpərvərliyini, eyni zamanda bu ailənin ənənələrinin davam etdirildiyini təsdiq edir.



**Bir ailənin iki 8 noyabrı**

İlləri ayrı-ayrı olsa da, iki 8 noyabr Azərbaycan xalqının azadlığı, müstəqilliyi, var olması uğrunda fədakarlıqlar göstərən Əliyevlər ailəsinin həyatında əlamətdarlığı ilə eyni rəqəmlərdir. 1954-cü ilin 8 noyabrı Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyevanın evlilik tarixi, 2020-ci ilin 8 noyabrı isə "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir",- deyən Ulu Öndərin işğal altında olan torpaqlarımızla bağlı narahatlığına son qoyulan gündür. Qarabağın baş tacı Şuşanın işğaldan azad olunduğu, Qarabağ savaşının bitdiyi, Zəfər bayrağının qaldırıldığı, ata vəsiyyətinin yerinə yetirildiyi gündür.

8 noyabr 2020-ci il. Qarabağın döyünən ürəyi Şuşanın azadlıq müjdəsini xalqına çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçısının rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün Ulu Öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin müasir dövrdə beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq.

Beləliklə 8 noyabrın bu ailənin taleyinə yazılması heç də təsadüfi deyilmiş... Hər zaman qürur duyduğumuz ailə.

***Mətanət Məmmədova***

# Beynəlxalq tələblər və milli standartlaşdırma

*Dövlət başçısının Sərəncamı ilə "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib*



Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında ötən dövr ərzində Ümummilli Lider Heydər Əliyevin siyasi və iqtisadi islahatlar kursunun uğurla davam etdirilməsinin məntiqi nəticəsi olaraq davamlı sosial-iqtisadi inkişafa nail olunub. Azərbaycanın postneft erasına uğurla addım atması üçün respublikada istehsal olunan məhsulların texniki səviyyəsinin, təhlükəsizliyinin, keyfiyyətinin və rəqabətqabiliyyətinin artırılması, onların dünya bazarına çıxışı, keyfiyyətin qiymətləndirilməsi, eləcə də xidmət sferasının təşkilinə müasir yanaşmanın təmin olunması istiqamətində səmərəli tədbirlər həyata keçirilib. Məlumdur ki, ixrac potensialının artırılması baxımından ölkəmizdə milli keyfiyyət infrastrukturunun beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində aparılan ardıcıl hüquqi və institusional islahatlar böyük əhəmiyyət daşıyır. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 iyul tarixli Fərmanı ilə beynəlxlq təcrübəyə uyğun "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq olunmuşdur. Müvafiq sahədə aparılan hüquqi islahatlar davamlı olaraq həyata keçirilir. Son illər ölkənin milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun yeni redaksiyası və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Əlbəttə ki, milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması müasir dövrün tələbləridir. Azərbaycan Prezidenti İlham Əliyev "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncam "Standartlaşdırma, metrologiya, akkreditasiya və patent hüququ obyektlərinin mühafizəsi sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1234 nömrəli Fərmanının 1.3-cü bəndinin icrası və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması, o cümlədən Avropa İttifaqının direktivləri əsasında milli texniki reqlamentlərin və beynəlxalq standartlar əsasında istinad edilmiş standartların qəbulu məqsədilə qərara alınıb. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək. Azərbaycan İqtisadiyyat Nazirliyinə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirmək, Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək tapşırılıb.

### SƏNƏDİN ƏSAS HƏDƏF GÖSTƏRİCİLƏRİ

Qeyd edək ki, Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə texniki tənzimləmə və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılmasına, onların biznes mühitinə dəstək istiqamətində tətbiqinə dair qanunvericilik və institusional sahədə konkret tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Dövlət Proqramı qlobal trendləri, respublikada müvafiq sahədə mövcud vəziyyəti, hədəf göstəricilərini, məqsədləri, prioritet istiqamətləri, maliyyələşmə mənbələrini və tədbirlər planını özündə ehtiva edir. Milli standartlaşdırma sisteminin məhsulların rəqabətqabiliyyətliliyinin artırılmasına töhfə verən fəaliyyətə çevrilməsi, Avropa İttifaqının direktivləri əsasında milli texniki reqlamentlərin və beynəlxalq standartlar əsasında istinad edilmiş standartların qəbulu, malların təhlükəsizliyinin, keyfiyyətinin təmini, onların rəqabətqabiliyyətliliyinin və ixrac potensialının artırılması və s. sənədin əsas hədəf göstəriciləri sırasındadır.

### ZAMANIN TƏLƏBİ: QARŞIYA QOYULAN MƏQSƏD VƏ HƏDƏFLƏR

Dövlət Proqramının məqsədlərinə gəlincə isə, texniki tənzimləmə sisteminin formalaşdırılması, texniki tənzimləmənin şamil olunduğu malların əhatə dairəsinin müəyyənləşdirilməsi, texniki tənzimləmə sahəsində infrastruktur təminatının yaxşılaşdırılması yer alıb. Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması zamanın tələbi olduğundan standartlaşdırma üzrə yaradılmış texniki komitələrin fəaliyyətinin beynəlxalq tələblərə uyğun təşkil edilməsi nəzərdə tutulur. Milli standartlaşdırma çərçivəsinin hazırlanması, texniki tənzimləmə sahəsində dövlət nəzarəti sisteminin formalaşdırılması, texniki tənzimləmənin şamil olunduğu malların təhlükəsizliyinə risk əsaslı dövlət nəzarəti sisteminin formalaşdırılması kimi amillər zamanın tələblərinə uyğun olaraq reallaşacaqdır.

Azərbaycanda istehsal olunan məhsulların keyfiyyətini, rəqabət qabiliyyətini və ixrac potensialını yüksəltmək, xarici ticarəti daha da liberallaşdırmaq, milli standartlaşdırma sahəsini müasir tələblərə uyğunlaşdırmaq məqsədilə mövcud standartlaşdırma sisteminin, o cümlədən istinad standartlarının beynəlxalq standartla uyğunluğunun təhlilinə, eləcə də standartlaşdırma üzrə texniki komitələrin fəaliyyətinin təkmilləşdirilməsinə və onların fəaliyyətinin beynəlxalq tələblərə uyğun təşkilinə ehtiyac vardır. Dövlət Proqramında 2022-2025-ci illər ərizində həyata keçiriləcək tədbirlər, gözlənilən risklər və onların neytrallaşdırılması, zərurət olduğu təqdirdə, müvafiq işçi qrupların yaradılması və s. milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına yönəldilib. Əlbəttə ki, müasir dünyamızda baş verən iqtisadi və siyasi çağırışlara adekvat cavab verilməsi, Azərbaycanın postneft erasına uğurlu transformasiyası üçün respublikada istehsal olunan malların texniki səviyyəsinin, eləcə də bazarın və istehlakçıların tələblərinə, istehsal prosesinə, keyfiyyətin qiymətləndirilməsinə və xidmət sferasının təşkilinə müasir yanaşma tələb olunur.

Dövlət başçısının Sərəncamı ilə "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı" milli standartlaşdırma sahəsində mütərəqqi standartların tətbiqi və mövcud standartların beynəlxalq, eləcə də Avropa standartlarına uyğunlaşdırılmasına öz töhfəsini verəcəkdir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Britaniyalı deputat ermənipərəst həmkarlarını belə susdurdu!

*Bob Blekmen: "Yataqlardan çıxarılan qızıl və s. qiymətli faydalı qazıntı materialları qanunsuz şəkildə istismar olunaraq Qarabağdan Ermənistana danışıb"*



Britaniya parlamenti palatasının bəzi ermənipərəst deputatlarının təşəbbüsü ilə Xankəndi-Laçın yolu üzərində baş verən məlum hadisələrlə bağlı müzakirələr aparılıb. Erməniperəst deputatlar əsassız və faktlara söykənməyən fikirlərini irəli sürdükləri bir vaxtda isə onlar əsl fakt qarşısında aciz qalıblar. Belə ki, Britaniya-Azərbaycan parlamentlərarası qrupunun rəhbəri, Konservativlər partiyasının təmsilçisi Bob Blekmen həmkarlarının Azərbaycanın ünvanına səsləndirdikləri ittihamlara dolğun cavab verməklə onları, sözün əsl mənasında, susdurub. O bildirib ki, Azərbaycan hökuməti Qarabağdakı yataqlarda nələrin baş vermədsindən bilavasitə narahatdır. Britaniyalı deputat həmçinin bildirib: "Ermənilər yataqların monitorinqinin aparılması üçün Azərbaycan tərəfinin araşdırma təklifini rədd ediblər və nəticədə həmin məsələ ekoloji fəalların etirazlarına səbəb olub. Eyni zamanda, sübutlar var ki, yataqlardan çıxarılan qızıl və s. qiymətli faydalı qazıntı materialları qanunsuz şəkildə istismar olunaraq Qarabağdan Ermənistana danışıb. Həmin fakt isə əldə olunmuş atəşkəs rejimini birbaşa pozur".

Britaniyalı deputat: "Biz anlamalıyıq ki, bu adam (Vardanyan) Rusiyanın Ukraynaya hərbi müdaxiləsinə görə sanksiyalara qarşıdır"

Bob Blekmen onu da bildirib ki, hazırda Qarabağda oturan və özünü "dövlət naziri" kimi təqdim edən Ruben Vardanyan erməni mənşəli Rusiya oliqarxıdır və o, Rusiya tərəfindən Qarabağa atılıb. SİTAT: "Biz anlamalıyıq ki, bu adam (Vardanyan) Rusiyanın Ukraynaya hərbi müdaxiləsinə görə sanksiyalara qarşıdır. Onun şirkətləri Ukraynada və Qarabağda hərbi mövcudluğun genişləndirilməsi yönündə aparılan işlərdə uğurla istifadə olunub".

Beləliklə, Azərbaycanın Britaniyadan olan dostu erməniperəst deputatların iddialarının qarşısına danılmaz faktlar qoyub və qarşı tərəflər həmin gatlar qarşısında aciz qalıblar. Diqqət çəkən məqamlardan biri isə budur ki, Bob Blekmenin çıxışı Böyük Britaniya parlamentinin rəsmi saytında da yerləşdirilib. Həmin linki təqdim edirik:

https://hansard.parliament.uk/commons/2023-01-24/debates/B6665EA2-0487-4DD5-8FAD-52C81A74FC4D/LachinCorridorAndNagorno-Karabakh#contribution-F96A237D-0F78-4DC4-BE46-E2AFA37EE231

**Rövşən RƏSULOV**

# "Ermənistan dünyadakı nəhəng investorlara heç nə verə bilməz"

"Davos görüşləri 50 ildən çoxdur ki, keçirilir. Cənab Prezident İlham Əliyev 19 dəfə İsveçrədə olub. Davosda 600-ə yaxın beynəlxalq qurumların rəhbərləri və 700-ə yaxın nəhəng şirkətlərin sahibləri toplaşıb. Bu o deməkdir ki, Davosda toplaşan bu insanlar bizim yer kürəsinin təxminən 75 faiz iqtisadiyyatını idarə edən şəxslərdir. Ona görə də cənab Prezidentin orada iştirakı, Azərbaycan barəsində dediyi həqiqətlər hamısı dünyaya çatdırılır". Bu sözləri SİA-ya açıqlamasında deputat Rüfət Quliyev deyib.




Onun sözlərinə görə, Azərbaycanın iqtisadiyyatda uğurları, beynəlxalq layihələr, o cümlədən Ermənistanla bu günə qədər həll olunmayan problemlərin hamısı cənab Prezident tərəfindən oradakı iştirakçılara tam şəffaf formada çatdırılaraq Azərbaycanın mövqeyi ortaya qoyulur: "Əsas məqam odur ki, Azərbaycan bütün dünya ilə normal dost-qonşu münasibəti qurmaq və iqtisadi münasibətləri inkişaf etdirmək istəyir.

Burada ən önəmli məsələ cənab Prezidentin "Adani Group" şirkətinin təsisçisi və sədri Qautam Adani ilə görüşüdür. Quatam Adani planetin ən varlı adamlarından biridir. Həmçinin sözü kəsərli adamdır. Bu ona görə önəmli məqamdır ki, Hindistanın Azərbaycana qarşı qeyri-adekvat mövqeyi bəllidir. Düşünürəm ki, bu görüşdən sonra istər Hindistanın siyasi isteblişmenti və iqtisadi nəhəng şirkətlərin sahibləri Azərbaycana tamamilə başqa formada baxacaqlar. Bu da bizim üçün çox önəmlidir".

Rüfət Quliyev sözlərinə belə davam edib: "Düşünürəm ki, bu görüşlərin keçirilməsi və cənab Prezidentin orada iştirakı çox vacibdir. Bununla da biz dünyanı daha yaxşı tanıyırıq və dünya ilə sıx əlaqələr qururuq. Həmçinin, dünya da Azərbaycanı yaxşı tanıyır. Nikol Paşinyan Davos görüşünə iki ildir ki, getmir. Bu, onu göstərir ki, Ermənistan dünya siyasətçiləri üçün bir o qədər də maraqlı ölkə deyil. Ermənistan müflis olmuş, iqtisadi durumu bərbad vəziyyətdə olan və sözü keçməyən ölkədir. Ermənistan dünyadakı nəhəng investorlara heç nə verə bilməz".

**Ayşən Vəli**

# Firudin bəy Köçərli - 160

## Böyük mütəfəkkirlər diyarımız - ŞUŞA



Tarixən mədəniyyət beşiyi olan, ədəbi-bədii fikir tariximizə böyük dəryələr bəxş etmiş Qarabağın incisi hesab olan Şuşa Azərbaycan tarixinə böyük mütəfəkkirlər, ictimai-siyasi xadimlər bəxş etmişdir. Onların dəsti-xətti, yaradıcılıq irsi, elmi, siyasi görüşləri tariximizdə iz salmış və hər birinin özünəməxsus olan bir tərcümeyi- halı var ki, onları vərəqlədikcə böyük qürur yaşayırsan ki, xalqımızın belə zəngin, fədakar simaları olub. Hər sahədə mücadilə aparıb, geniş yaradıcılıq imkanları, siyasi mübarizələri ilə Şuşada boya-başa çatan insanların kimliyi bizdə əməlləri ilə lazımı təsəvvür yaratmışdılar. Bu torpağın yetirdiyi Azərbaycan Demokratik Cumhuriyyəti dövründə Ukraynada diplomatik nümayəndə təyin edilən Yusif Vəzir Çəmənzəminli, eyni zamanda, Krımda və Polşada da Azərbaycanın diplomatik nümayəndəsi idi. Yenicə işə başlamış diplomatik nümayəndəliyin əsas məqsədi Azərbaycanı bu ölkələrin ictimaiyyətinə tanıtmaq idi. Böyük əsərlər müəllifi olan Yusif Vəzir bu vəzifəni yerinə yetirməklə yanaşı, ədib olduğunu da heç vaxt unutmamış və Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti haqqında əsərlər yaratmışdır. 1921-ci ildə yazıçının elmi müşahidələrlə zəngin olan "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi -coğrafi və iqtisadi Azərbaycan" adlı kitabları işıq üzü görür. 1930-1935-ci ildə o özünün "Qızlar bulağı", "Studentlər", "1917-ci ildə" romanlarını çap edir, komik pyes olan "Həzrəti Şəhriyar" əsərini qələmə alır. Qarabağın - Şuşanın yetirdiyi Azərbaycan yazıçısı, publisisti, tərcüməçisi, tənqidçisi, maarifləndiricisi və ictimai xadimi Xəlil İbrahim ictimai-siyasi, mədəni-maarifləndirci, sosial və s. qadın azadlığı mövzusunda yazaraq, özünü bütün janrlarda mükəmməl yazıb-yaradan bir ziyalı olaraq təqdim edib. Əlbəttə ki, Şuşanın tarixini vərəqlədikcə nə qədər böyük ziyalıların olduğunu görürük. Bu gün onlardan biri olan Azərbaycan ədəbiyyatşünaslığı və pedaqoji fikir tarixində məşhur olan alim, tənqidçi və pedaqoq kimi dəyərləndirilən Firudin bəy Köçərli haqqında söz açacağıq. Böyük sənətkarın doğum günündə - 26 yanvar tarixində.

### ŞUŞADA KÖÇƏRLİ MƏHƏLLƏSİ

Tərəqqipərvər elm və ədəbiyyat xadimləri sırasında xüsusi yer tutan şəxsiyyətlərdən olan Firudin bəy Əhməd ağa oğlu Köçərli 160 il bundan əvvəl - 1863-cü ilin 26 yanvarında Şuşada anadan olub. Əsli Cavanşir mahalının Köçərli kəndindən olan Firudin bəyin ulu babalarından Məhəmməd bəy Köçərli kəndindən Şuşaya köçmüş, burada yurd-yuva salmış, beləliklə, Şuşada Köçərli məhəlləsi yaranmışdır. Firudin bəyin dünyaya göz açdığı mühit əsl ziyalı mühiti olmuşdur. Belə ki, onun atası Əhməd ağa savadlı bir şəxs olmuşdur. Belə bir mədəni mühitdə böyüyən Firudin bəy Mirzə Kərim Münşizadənin məktəbində təhsilə başlamış, sonralar Şuşadakı rus məktəbinə daxil olmuşdur. Onun tərcümeyi-halında göstərilir ki, Firudin bəy Köçərli 1872-1876-cı illərdə Şuşada Mirzə Kərim Münşinin mədrəsə məktəbində təhsil alıb. Daha sonra 1876-cı ildə Şuşadakı rus məktəbinə daxil olub. 1878-ci ildə Aleksey Çernyayevski Zaqafqaziya Müəllimlər Seminariyasına tələbə toplamaq məqsədi ilə bu məktəbə gəlir və Firudun bəyi də təhsil almaq üçün Qoriyə aparır. 1879-1885-ci illər ərzində o Zaqafqaziya müəllimlər seminariyasında təhsil alır.

Təhsil aldığı müddətdə müəllimləri A.O.Çernyayevski və M.Kipiani ilə yaxın münasibət saxlayır. 1885-ci ildə seminariyanı bitirdikdən sonra İrəvan gimnaziyasına təyinat alır. 1885-1890-cı illərdə İrəvanda fəaliyyət göstərdiyi dövrdə gimnaziyada ana dili, hüsnxətt fənlərini tədris edir, pansion mürəbbisinin köməkçisi vəzifəsini daşıyır. Pedaqoji sahədə müvəffəqiyyətlərinə görə dəfələrlə mükafatlandırılan Firudin bəyə "Kollecski sekretar", "Titulyar sovetnik" və "Statski sovetnik" rütbələri verilir. 1893-1894-cü illərdə yenidən İrəvan gimnaziyasında fəaliyyət göstərir. 1895-ci ildə isə İrəvan şəhərini tərk edir. Elə həmin ildə mütərəqqi təhsil ocağı olan Qori Müəllimlər Seminariyasının "tatar şöbəsi"-nin Azərbaycan dili və şəriət müəllimi təyin edilir. 1918-ci ilə qədər Qoridə pedaqoji fəaliyyətini davam etdirir. 1897-ci ildə Vəkilovlar nəslindən olan Badisəba xanım Köçərli ilə ailə həyatı qurur. 1910-cu ildə Qori Seminariyasının Azərbaycan şöbəsinin müvəqqəti təlimatçısı sonradan isə seminariyanın Azərbaycan şöbəsinin inspektoru vəzifəsinə təyin olunur. 1916-1917-ci illərdə seminariyanın Azərbaycana köçürülməsi üçün təşəbbüs göstərir, təkliflər irəli sürür.

### MAARİFPƏRVƏR ZİYALININ PEDAQOJİ BAXIŞLARINDA XƏLQİLİK

Firudin bəy Köçərli siyasi proseslərə qoşularaq, "Müsavat" partiyasına üzv olur. 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin tədris ləvazimatı və avadanlığı ilə birlikdə öz xərcinə Qazax şəhərinə köçürür, bunun əsasında Azərbaycan Müəllimlər Seminariyası yaradılır. Firudun bəy Köçərli seminariyanın direktoru təyin olunur. 17 sentyabr tarixindən Qazax Müəllimlər Seminariyasında ilk dərslər başlayır. Sonradan Qazaxda ilk uşaq evi açır. 1918-ci il 28 may tarixində Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının üzvü seçilir, və İstiqlal bəyannaməsini imzalayır. 1919-cu il fevralın 1-də Müsavat partiyasının səyyar bürosunun Mərkəzi Komitəsinin təşəbbüsü ilə təşkil edilən Qazax şöbəsinə sədr seçilir. Sovet işğalına qədər Qazax Müəllimlər Seminariyasına rəhbərlik edir.

1884-cü ildə Qori müəllimlər seminariyasında təhsil alarkən "Təlimi-Sokrat" əsərini yazıb. İrəvan gimnaziyasında çalışdığı illərdə Zöhrabzadə ilə birlikdə "Təlimi-lisani-türkü" adlı dərslik tərtib edir. 1890-cı ildə İrəvanda "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını tamaşaya qoyur. 1891-ci ildə "Təlimi-Sokrat" adlı kitabı Bağçasarayda "Tərcüman" mətbəəsində, 1892-ci ildə isə A.S.Puşkindən tərcümə etdiyi "Torçu və balıq" mənzum nağılı İrəvan şəhərində kitab halında çapdan çıxır. M.Y.Lermontovun "Üç xurma ağacı" və A.Koltsovun "A kişi, niyə yatıbsan?" şeirlərinin tərcüməsindən ibarət kitabı Şuşada çap edilir. "Tatar komediyaları" adlı ilk elmi məqaləsi "Novoye obozreniye" qəzetində dərc olunur. 1898-ci ildə "Ərəb əlifbası və onun qüsurları" silsilə məqaləsi "Qafqaz" qəzetində dərc olunur.

1900-cü ildə Müəllimlər Seminariyasının Ümumdünya Paris sərgisində Qori Seminariyasından nümayiş etdirilən eksponatlar sırasına F.Köçərlinin kitabları da daxil edilir. 1903-cü ildə Tiflisdə "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabı rus dilində çap edilir. Elə həmin ildə M.F.Axundovun "Aldanmış kəvakib" povestini rus dilinə çevirir. 1904-cü ildə A.P.Çexovun "At familiyası" hekayəsini tərcümə edib, kiçik bir müqəddimə ilə "Şərqi-Rus" qəzetində dərc etdirir. 1906-cı ildə "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasını təqdir edərək, jurnalın birinci üç aylıq fəaliyyəti barədə icmal hazırlayıb, "Tiflisskiy listok" qəzetində dərc etdirir. "İrşad" qəzetində "Bir darülmüəllimin kifayətdir" adlı məqalə ilə çıxış edərək, Azərbaycanda müstəqil Müəllimlər Seminariyası yaradılması məsələsini qaldırır. Cəlil Məmmədquluzadənin "Usta Zeynal" kitabçası haqqında eyniadlı məqaləni "Znaniye" qəzetində çap etdirir. M.F.Axundzadənin anadan olmasının 100 illik yubileyi münasibətilə Tiflisdə keçirilən təntənəli yığıncaqda məruzə ilə çıxış edib. "Mirzə Fətəli Axundov" adlı kitabı çap olunub. 1912-ci ildə uşaqlar üçün yazdığı "Balalara hədiyyə" kitabı Bakıda "Kaspi" mətbəəsində çap olunur. 1913-cü ildə yazdığı "Azərbaycan ədəbiyyatı tarixi" adlı üç cildlik əsərini tamamlayır. 1920-ci ildə "Vətən dili"nin I hissəsinin yenidən işlənməsində xidmətləri olur.

Onlarla dərsliyə düzəliş edən Firudin bəy nəzəri materialı, hekayələri artıraraq, metodika və stilistikasını zənginləşdirir. Ölümündən sonra 1925-ci ildə "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabının I hissəsi, 1926-cı ildə isə kitabın II hissəsi çap edilir. Uşaqlar üçün yazdığı "Balalara hədiyyə" kitabı isə 1967,1972 və 2013-cü illərdə çap edilir.

### QƏRARA ALINIR: MÜTTƏHİM KÖÇƏRLİNSKİ GÜLLƏLƏNSİN

1920-ci ilin mayında Qazax kommunistləri Köçərlini və digər "Müsavat" funksionerlərini "xalqa xəyanətdə", "milli nifaq törətməkdə", "torpaq və mülk zəbt etməkdə", general-qubernator Ə.Xoyskinin etibarlı şəxsləri olmaqda ittiham edirlər. Qazax İnqilab Komitəsinin Gəncə Fövqəladə Komitəsinə təqdimatına əsasən, ədib həbs olunur, 20-ci diviziyanın 7-ci xüsusi bölməsi xüsusi şöbəsində şahidlər dindirilmədən, verilmiş izahatlar nəzərə alınmadan güllələnməsi haqqında qərar çıxarılır və hökm yerinə yetirilir. Güllələnmə haqqında çıxarılmış qərarda belə deyilirdi: "Mən, iyirminci diviziyanın xüsusi şöbəsinin hərbi müstəntiqi bu gün Firudun bəy Köçərlinskinin əksinqilabçı kimi ittihamnaməsi üzrə işinə baxaraq və Qazax İnqilab Komitəsinin ona verdiyi xasiyyətnaməni nəzərə alaraq bildirirəm ki, müttəhim Köçərlinski özünün hakimiyyətindən və böyük səlahiyyətindən istifadə edərək zəhmətkeş xalqa zorakılıq göstərmişdir. Köçərlinski Qazaxda "Müsavat" partiyasının sədri olarkən millətçilik ehtiraslarını qızışdırmışdır. Nəticədə qonşu millətlər arasında toqquşmalar baş vermişdir. Onun verdiyi izahat heç də inandırıcı deyildir... Müttəhim Köçərlinskinin şahidlərin dindirilməsi haqqında ərizəsini nəticəsiz qoymaq (rədd etmək) lazımdır. Onun gələcəkdə azadlıqda qalması Qazax qəzasında əksinqilabi hərəkatın baş verməsinə, fəhlə və kəndlilərin günahsız olaraq qanlarının tökülməsinə səbəb ola bilər. Qərara alınır: müttəhim Köçərlinski güllələnsin.

Təsdiq edirəm: 7№-li Xüsusi bölmənin rəisi Liberman

Təsdiq edirəm: Fövqəladə komissar H.Sultanov".

1920-ci ildə Azərbaycan Demokratik Cümhuriyyəti bolşevik-daşnak qüvvələri tərəfindən süquta uğradılandan sonra başlanan faciə və məqsədli terror qurbanlarından biri Firudin bəy Köçərli olmuşdur. O, Gəncədə heç bir əsas olmadan güllələnmişdir. Millət aşiqi, maarif fədaisi olan Firudin bəy Köçərlinin gənc nəslin təhsil almasında, maariflənməsində əvəzsiz xidmətləri olmuşdur. Qədirbilən xalqımız böyük mütəfəkkirin işıqlı əməllərini heç vaxt unutmayacaq.

Bu gün maarifpərvər ziyalı Firudin bəy Köçərlinin böyüyüb boya-başa çatdığı Qafqazın incisi olan Şuşa böyük inkişaf dövrünü yaşayır. Şuşa xalqımız üçün tarixi, mədəni, mənəvi və rəmzi əhəmiyyətə malikdir. Qarabağ xanlığının tarixi paytaxtı, mədəniyyət məbədi olan bu qədim şəhər böyük mütəfəkkirlər diyarıdır.

Ümummilli lider Heydər Əliyev Qarabağın Azərbaycan üçün müstəsna əhəmiyyəti olduğunu bildirərək demişdi: "...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

Təbii ki, qısa bir zamanda Şuşa Qarabağımızın və bütövlükdə Azərbaycanımızın elm, mədəniyyət və təhsil mərkəzinə çevriləcək, əvvəlki şöhrətini özünə qaytaracaqdır. Şuşanın musiqi, mədəni və təhsil həyatı öz əvvəlki ahənginə qovuşacaqdır. Yenidən Firudin bəy Köçərlilər, Üzeyir bəy Hacıbəylilər, Xurşidbanu Natəvanlar bu torpaqdan boy verəcəklər, yetişən fidanlar böyük mütəfəkkirlərin yaratdığı salnamələri əxz edə-edə Şuşanın tarixi yaddaşına səyahət edəcəklər.

**Zümrüd BAYRAMOVA**



# İranın çox ciddi narahatlığı

## *ABŞ və İsrail mübarizə birliyini gücləndirir*

***Bu gün ABŞ və İsrail son illərin bəlkə də ən böyük birgə hərbi təlimlərini keçirir. Bəyan edilmiş məqsəd Yaxın Şərq regionunda müxtəlif təhdidləri dəf etmək üçün müttəfiqlərin kollektiv hərəkətlərini hazırlamaqdır. Amerika mənbələri vurğulayır ki, müxtəlif ssenarilər nəzərdən keçirilir. Məsələn, burada söhbət təkcə İran kimi konkret rəqibdən söhbət getmir. Bu arada israilli ekspertlər İranın nüvə dövlətinə çevrilməsi və Tehranla Moskva arasında hərbi əməkdaşlığın genişləndirilməsi ilə bağlı həyəcan təbili çalırlar. Bu barədə xüsusilə, bu həftə İsrail prezidentinə göndərilən 2023-cü il üçün strateji proqnozda da bildirilir.***











Bu həftə İsraildə və Aralıq dənizinin şərqində Juniper Oak (2023) adlı ABŞ-İsrail hərbi təlimi keçirilir. Hərbi təlimlərdə 6,4 min amerikalı və 1,1 min İsrail hərbçisi iştirak edir. 140-dan çox təyyarə və helikopter (onlardan 100-ü Amerika), 12 gəmi, Amerikanın HIMARS da daxil olmaqla çoxsaylı buraxılış raket sistemləri iştirak edir. Müttəfiqlər komanda-qərargah qarşılıqlı fəaliyyəti, dənizdə döyüş əməliyyatlarında aviasiyadan istifadə, havada təyyarələrə yanacaq doldurma, "elektron hücumlar", düşmənin hava hücumundan müdafiəsinin qarşısının alınması, aviasiya vasitələrinin tutulması, yüksək dəqiqlikli raket zərbələri zamanı koordinasiya və kəşfiyyat işləri aparır. Təlimlər cümə gününə qədər davam edəcək.

İsrail ordusunun mətbuat xidməti bazar ertəsi təlimlərin başlandığını elan edərək, "Bu, regionda bir sıra təhlükələrə hazır olmaq üçün ordular arasında çoxsəviyyəli beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində daha bir addımdır" deyib. Öz növbəsində, Yaxın Şərqə cavabdeh olan ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) bu cür təlimlərin "silahlı qüvvələr arasında qarşılıqlı fəaliyyət qabiliyyətini inkişaf etdirdiyini, hərbi potensialı artırdığını və regionda təhlükəsizlik və sabitlik üçün vacib olduğunu" vurğulayıb.

İsrail mətbuatının məlumatına görə, CENTCOM-un yüksək rütbəli rəsmiləri yaxın günlərdə təlimlərin keçirildiyi ərazilərə baş çəkəcəklər. Eyni zamanda, ötən həftə CENTCOM komandanı general Maykl Kurilla İsrailə səfər edib. O, İsrailin yeni Baş Qərargah rəisi Herzi Halivinin andiçmə mərasimində iştirak edib, həmçinin İsrailin yeni müdafiə naziri Yoav Qalantla görüşüb.

Adının açıqlanmasını istəməyən ABŞ Müdafiə Nazirliyinin yüksək rütbəli rəsmisi NBC News-a bildirib ki, təlimlər ölkəyə xas deyil. Amma eyni zamanda o, İran kimi regional düşmənlərin onlara diqqət yetirməsini təklif edib. "Təlimlərin miqyası bir sıra ssenarilərə aiddir və İran bundan müəyyən nəticələr çıxara bilər" deyib. Təlimlər ABŞ-İran münasibətlərinin növbəti kəskinləşməsi fonunda keçirilir, o zaman Vaşinqton Tehranı insan haqlarını pozmaqda və Rusiya ilə hərbi əməkdaşlıqda ittiham edərək onu tənqidi kəskin şəkildə gücləndirib.

Eyni zamanda, İran və ABŞ-ın Vyanada iki ilə yaxındır davam edən Birgə Hərtərəfli Fəaliyyət Planına (JCPOA) qayıtması ilə bağlı danışıqların praktiki olaraq dondurulmuş olduğu üzə çıxıb. Xatırladaq ki, JCPOA nüvə hərbi proqramını məhdudlaşdırmaq müqabilində Tehrana qarşı sanksiyaların ləğvini nəzərdə tuturdu. İndi iranlıların əlləri faktiki olaraq sərbəstdir. Bu, İsraildə xüsusi narahatlıq doğurur. Bununla belə, onlar JCPOA-nı həmişə səmərəsiz hesab ediblər və "nüvə sazişi"nin bərpasına qarşı çıxıblar. Bunun müqabilində İsrail siyasətçiləri Vaşinqtona Tehrana təzyiqləri artırmağı və İranın strateji infrastrukturuna zərbələr endirəcək "B planı" hazırlamağı təklif ediblər.

İsrail prezidenti İshak Hersoka Milli Təhlükəsizlik Tədqiqat İnstitutunun (INSS) 2023-cü il üçün strateji proqnozu ilə bağlı göndərilən və bu həftə Tehranın nüvə silahı yaratmaq üçün heç bir texnoloji maneənin olmayacağı bir nöqtəyə yaxınlaşması barədə xəbərlərdən sonra siyasi qərar verilə bilər. Sənədin müəllifləri vurğulayırlar ki, İranın "nüvə həddi"nə nail olması (rəsmi açıqlama olmadan da olsa), onun Yaxın Şərq regionunda özünü möhkəmləndirmək cəhdləri ilə yanaşı, "İsrail üçün ən böyük real təhlükəni təmsil edir". Digər ciddi problem isə Rusiya-Ukrayna münaqişəsi fonunda Tehranla Moskva arasında əməkdaşlığın kəskin şəkildə intensivləşməsidir. Söhbət həm "Qərbin hər hansı hücumu" halında onun müqavimət göstərmək şansını artıracaq İrana müasir Rusiya silahlarının mümkün tədarükündən, həm də Moskvanın Tehrana göstərə biləcəyi siyasi və iqtisadi dəstəkdən gedir.

Bundan əlavə, hesabat müəllifləri israilli siyasətçilərə Vaşinqtonla münasibətlərdə potensial problemlər barədə xəbərdarlıq edirlər. Mətndə deyilir: "ABŞ və Çin arasındakı rəqabət, eləcə də Rusiyanın Ukraynaya müdaxiləsi İsraili tərəf seçməyə sövq edir. Hesabat müəllifləri "İsrailin xarici siyasətini böyük güclərin rəqabəti dövrünə uyğunlaşdırmağı" və ABŞ və ümumilikdə Qərbin addımları ilə "müdrik uyğunlaşma" strategiyası seçməyi qətiyyətlə tövsiyə edirlər.

Eyni zamanda, həm Çin, həm də Rusiya ilə əməkdaşlığın davam etdirilməsi təklif edilir. Suriyadakı vəziyyəti nəzərə alaraq, Moskva ilə təmaslar İsrail üçün xüsusilə vacibdir. "Rusiya Suriya ordusunun yenidən qurulması, diplomatik vasitəçilik və iqtisadi layihələrdə mərkəzi rol oynamağa davam edir və onun maraqlarını təmin etmək üçün Suriyada kifayət qədər mövcudluğunu saxlayacağı gözlənilir", - mətndə deyilir. Həmçinin qeyd olunur ki, Ukraynadakı döyüşlər fonunda Rusiyanın İsrailin Suriyadakı hərəkətlərinə qarşı həssaslığı daha da kəskinləşib. Söhbət İsrailin Suriya ərazisində iranyönlü qrupların hərbi bazalarına davamlı zərbələr endirməsindən gedir. İsrail Rusiya-İran yaxınlaşmasının bu praktikaya mane olacağından ehtiyat edir. "Ola bilsin ki, Moskva İran obyektlərini İsrailin hücumlarından qorumağa razı olsun", - hesabat müəllifləri yazır.

Təsadüfi deyil ki, İsrail bu həftə Hələbin şərqindəki Ceyraxda yenidən qurulan hərbi aerodromda Suriya ilə birlikdə Rusiya döyüş təyyarələrinin yerləşdirilməsi xəbərindən narahatlığını ifadə edib. İsrail kəşfiyyat orqanları iranlıların Rusiyanın hava hücumundan müdafiə çətiri altında silahlarını Suriyaya çatdırmaq üçün aerodromdan istifadə edəcəyindən ehtiyat edirlər. "Ceyrə, ilk növbədə, Hələb vilayətinin şərqində Suriya hökumət qüvvələrinin mövqelərini gücləndirməkdir. Bu aerodromun Fəratda Əl-Əsəd su anbarının yaxınlığında və Mənbicdən cənubda yerləşməsi Türkiyə ilə Suriya kürdləri arasında vəziyyətin inkişafına cavab vermək baxımından vacibdir", - hərbi ekspert Yuri Lyamin bildirib.

İsrailin qorxularına gəlincə, ekspertin fikrincə, Ceyrax o qədər də böyük aerodrom deyil və İranın yük təyyarələri daha böyük eniş meydançalarından istifadə etməklə daha rahatdır. "Lakin ümumilikdə Suriyada hava hücumundan müdafiə sistemi ilə əhatə olunan və Rusiyanın mümkün iştirakı ilə işləyən aerodromların sayının artması İsraildən kəşfiyyat və digər fəaliyyətlər üçün daha çox resursa malik olmasını tələb edir. Lakin başqa aerodromun istifadəyə verilməsindən vəziyyət əsaslı şəkildə dəyişməyəcək", - deyə o, fikrini yekunlaşdırıb.

Vəziyyəti nəzərə alaraq, hesabat müəllifləri İsrailin Suriya səmasında hərəkət azadlığını buraxmaq, eyni zamanda Moskva ilə münaqişədən qaçmaq üçün Suriyada Rusiya ilə toqquşmanın qarşısını almaq mexanizmini saxlamağı zəruri hesab edir. Bu, həmçinin İsrailin Suriyada iştirak edən digər oyunçularla - ABŞ, İordaniya, Türkiyə və Fars körfəzinin ərəb monarxiyaları ilə koordinasiyasını davam etdirməsinə mane olmamalıdır.

***V.VƏLİYEV***

# Qarabağda Vardanyana qarşı müxalifət yaradılıb!

*"Hraparak": "Ermənistan iqtidarı onun anidən İrəvanda peyda olmaması və hakimiyyətə təhlükə yarada bilməməsi üçün əlindən gələni edir"*



Ermənistanın kifayət qədər məlumatlara malik olan qəzeti - "Hraparak" yazır ki, Qarabağdakı cinayətkar rejimin "dövlət naziri" Ruben Vardanyana qarşı artıq bir neçə müxalifət ocaqları yaranıb. "Onların bir hissəsi Ermənistan respublikasının nəzarəti altında fəaliyyət göstərən tərəflərdir. Ermənistan hakimiyyəti Vardanyanın Qarabağda hər hansı minimal uğur qazanmasının qarşısını almağa çalışır. Ona görə də onun anidən İrəvanda peyda olmaması və Paşinyanın hakimiyyətinə təhlükə yarada bilməməsi üçün əlindən gələni edir", deyə yazan erməni nəşri onu da bildirib ki, Ruben Vardanyan Nikol Paşinyanın İlham Əliyevlə əldə etdiyi razılaşmaların həyata keçirilməsinə də müxtəlif şəkillərdə mane olmağa çalışır və bu cəhdlər onun Qarabağda fərqli mövqe nümayiş etdirməsi ilə müşahidə olunmaqdadır.

### İlham Əliyevin hansı sözü Ermənistan rəhbərliyini düşünməyə vadar edib?

Qəzetin iddialarından belə bir nəticə də hasil etmək mümkündür ki, artıq Ermənistanın hakim dairələri də qondarma rejimin son zamanlarını yaşadığına kifayət qədər əmindir və bunun müqabilində Vardanyanın hər hansı yolla olursa-olsun, İrəvana getməsi mümkün görünür. O cümlədən, Azərbaycan Prezidenti İlham Əliyevin ölkə televiziyalarına verdiyi müsahibəsi zamanı separatçıların hələ də canlarını qurtarmağa imkanlarının olması, yaxud onların Rusiya sülhməramlılarına məxsus yük maşınlarının tentləri altında Azərbaycanın suveren ərazilərini tərk etmək şanslarının mövcudluğu barədə fikir bildirməsi də Ermənistan rəhbərliyini düşünməyə vadar edib. Onlar bu reallığı dərk edərək Vardanyanın İrəvana daxil olmasını hər vəchlə əngəlləməyə çalışırlar. Bu baxımdan, "Hraparak" Qarabağda anti-Vardanyan xarakterli müxalifətçi koalisiya ocaqlarının fəaliyyətə başlamasına eyham vurur.

**Rasim Musabəyov: "RSK qanunsuz istismara məruz qalan yataqlarda monitorinqin aparılmasının qarşısını alan Vardanyana və onun tərəfindən hazırlanmış dəstələrə qarşı tədbir görə bilməyibsə, onda azərbaycanlı ekofəalların etirazları ilə də barışmağa məhkumdur"**

Bu arada, azərbaycanlı deputat və politoloq Rasim Musabəyovun da baş verənlərlə bağlı gəldiyi qənaətləri maraqdoğurucudur. O da əmindir ki, artıq rəsmi İrəvan Kremlin Ermənistanda hakimiyyət dəyişikliyi etmək planlarından xəbərdardır və bunu açıq şəkildə bəyan edir. Bu baxımdan, azərbaycanlı deputat daha bir məqama da toxunaraq bildirib ki, Xankəndi-Laçın yolu üzərində Rusiya sülhməramlıları kontingenti (RSK) ilə yanaşı Azərbaycanın da nəzarət-buraxılış məntəqəsinin olmasına başqa alternativ yoxdur. SİTAT: "Erməni KİV-ləri, siyasətçiləri və analitikləri, ermənipərəstliyə köklənmiş amerikalılar və avropalılar Moskvaya çağırış edirlər ki, o Laçın yolu üzərindəki nəzarəti tam əlinə götürsün. Ancaq etiraz aksiyası artıq ikinci aydır ki, davam edir və göründüyü kimi, RSK-dan gözlənilən "qətiyyətli" fəaliyyət yoxdur. Buna isə köklü səbəblər var. RSK məhdud fəaliyyətə malikdir. Birincisi, RSK nəzarət etdiyi ərazilərdə nəinki ermənilərin, həm də azərbaycanlıların təhlükəsizliyini təmin etməyə məsuldur. Əgər RSK qanunsuz istismara məruz qalan yataqlarda monitorinqin aparılmasının qarşısını alan Vardanyana və onun tərəfindən hazırlanmış dəstələrə qarşı tədbir görə bilməyibsə, onda azərbaycanlı ekofəalların etirazları ilə də barışmağa məhkumdur".

### Deputat: "Vardanyanın müqaviməti sındırılacaq, onun özü isə tez bir zamanda hər hansı bəhanə altında Qarabağı tərk edəcək"

Musabəyova görə, RSK-nın ekofəallara qarşı silahdan istifadə etməsinə hüququ yoxdur və eyni zamanda, yolun onlardan təmizlənməsi gücünə də malik deyil. SİTAT: "Olayın baş verdiyi yerdən bir neçə yüz metr aralıda, Şuşa şəhərində Azərbaycan komandoları dislokasiya olunublar ki, onlar lazım olan anda azərbaycanlı ekofəalların köməyinə gələ və çox rahatlıqla gənc rus əsgərciklərini yerlərində otuzdura bilərlər".

Deputat onu da bildirib ki, Ukraynada müharibə edən Rusiya isə heç bir halda Azərbaycanla birbaşa silahlı qarşıdurmaya getməz. RSK-nın nəzarət etdiyi ərazilərin perimetri boyunca Azərbaycan Respublikası Silahlı Qüvvələrinin üç iri korpusu yerləşib. Ona görə də Bakı ilə razılaşma əldə etməklə birgə və humanitar məqsədlər üçün istifadə ediləcək Laçın yolunun birgə nəzarət altına alınmasının alternativi yoxdur. "Düşünürəm ki, qeyri-rəsmi danışıqlar aparılır və Vardanyanın müqaviməti sındırılacaq, onun özü isə tez bir zamanda hər hansı bəhanə altında Qarabağı tərk edəcək", deyə o mümkün versiyasını irəli sürüb.

**Rövşən RƏSULOV**

# Bank-bank...

*Hə, indi qızını ərə verərkən cehizinin üstündə diplom da olmadısa, ta bunun nə faydası. Heç elə bil nə əziyyət çəkib banklara kreditə girib o dəbdəbəli toyu eləmisən, nə də yenə banklara kreditə girib o boyda cer-cehizi yığmısan. Asan iş deyil ey, Allah verərsə, iki-üç nəvən olacaq, hələ sən biçarə o kreditləri ödəyib qurtara bilməyəcəksən.*




Axı, bax, bu misal haradan ortaya çıxıb ki, bizim də qanımıza işləyib? Misala bax: qonşu qonşuya baxar, canın odlara yaxar. Ay qardaşlar, ay bacılar, niyə baxırsınız? Axı ata-babalarımız bizə başı aşağı olmağı da tövsiyə edib gediblər. Sal başını aşağı, qonşunun-qohumun yanından keç. Sənə kim deyir ki, başını qaldırıb görəsən ki, qonşu ikimərtəbəli ev tikdirib. Sən də düşəsən sevdaya ki, yox ey, necə, nə təhər edim ki, onun tikdiyi evdən mən də tikim. Məgər mən ondan kəsir oğlanam ki, hasarın o tərəfindən onun evi boylana, mənim evim də hasarın içində itə.

Hə, nə edirik? Axı qonşudan fərqli olaraq nə əlimizdə, nə də ovcumuzda var. Düşürük bank-bank, deyirik görək hansı bircə qırıq aşağı faizlə pul verir, götürək başlayaq. Banklar da ki, Allah onlara insaf versin, nə dinləri var, nə də imanları. Faizi eşidəndə neçə ildən bəri alıb, hələ də yeniləyə bilmədiyin papaq da özünü atır yerə. Amma çarə nədir? Nəyin bahasına olursa-olsun bu pul götürülməli, o ev tikilməlidir. Sonrası həmişəki klassik düşüncəmiz: Allah kərimdir.

Hə, pulu götürdük, başlayırıq evimizi bir mərtəbə də artırmağa. Qonşununku qədər olmasa da, ona yaxın bir şeyə oxşadırıq. Səhəri qonşunun yanından keçəndə isə elə bir havada oluruq ki, gələsən, görəsən.

Bu qonşu da ki, Allah saxlamış, hardan alır, hardan tapır bu pulu, nə bilim axı. Bir təhər ki, dişini-dırnağını sıxıb evi qurtarmışdın ki, bir də görürsən qonşunun qapısının ağzında bir maşın. Ə, bu nədir, ə? "Buna bax, maşınına bax",- deyirsən və için-için yeyir. Yenə o köhnə papağını qabağına qoyub başlayırsan fikirləşməyə ki, necə edim, bir babatını da mən alım. Amma ala bilmirsən axı. Kreditin var. Çox düşünüb, çox daşınandan sonra deyirsən ki, ə, var, var da. Qoy gedib bu səfər də arvadın adına kredit götürüm. Üz tutursan yenə banklara. Yaxşı bunu da bir təhər həll edib, alırsan bir maşın, qoyursan qapının ağzına, olursan qonşu ilə bərabər. Amma necə bərabər? Bax bunu deyə bilmirəm.

Günlər keçir, arvad deyir ki, ay kişi axşam gələndə konfetdənzaddan bir kilo al, gedək qonşuya, deyir qızı məktəbə girib. Ay Allah, bax, müsibət bu dəfə başlayır, özü də necə başlayır. Ta kişi kiriyərmi, susarmı məgər?

-Hə, xalxın da uşaqları var, mənim də. Bax ey, gör camaatın balasının səsi haralardan gəlir. Bizimkilərə də oxu deyəndə, canları çıxır. İndi bu gündən baxassız gününüzə, yaxşı.

Nə isə, axşam da gedirlər qonşuya gözaydınlığı verirlər. Qayıdırlar evə. Bu dəfə də düşürlər diplom sevdasına. İlişirlər uşaqların canına. Başlayırlar onları hazırlığa qoymağa. Nədi, nədi ki, bunlar bal toplayıb bir məktəbə girsinlər. Uşaq deyir, ay dədə, vallah mən riyaziyyatdan heç nə anlamıram. Ata deyir ki, qələt edirsən, öyrənməlisən. Qız deyir ki, ay ana, vallah, nə qədər edirəm kimyadan, fizikadan bir şey başa düşmürəm, ana deyir ki, heç nə olmaz, bəs müəllim nədən yanadır, qoyuruq hazırlığa ki, öyrənəsən də.

Hə, bax, belə-belə bir də baxdıq ki, dəbdəbəli toy, cehiz kimi, diplom da dəbə düşdü. Camaat başladı bir-birinin bəhsinə uşağını oxutmağa. Uşaq oxudu-oxumadı, getir hazırlığa, valideyn də başlayır yeməyindən, əynindən-başından kəsib hazırlıq pulunu ödəməyə. Vaxt gəlir, baxırlar ki, vay, bu uşaq üç-dörd ildir hazırlığa gedib, topladığı bala bax. Bu dəfə də valideyn deyir, əşi, ta nə edim ey, düşür düşsün də ödənişliyə, çarə nədir, bir təhər oxuduraram. Yenə də başlayır bank-bank gəzməyə. Hara gedir, banklar od tutub yanır. "Çarə yoxdur ey, qonşunun oğlu keçən il girib məktəbə, qızı da bu il. Sinifdə universitetə girməyən qalmayıb. Mənimki niyə geridə qalmalıdır?",- deyib, götürür pulu aparıb ödəyir məktəbə. Uşaq da olur tələbə.

Elə ki, məktəblərin açılmasına az bir zaman qalır, yenə valideynin kürkünə birə düşür. Axı dərd bir deyil, iki deyil? Bunun əyni-başı var, qalmağa yeri var, yeməyi-içməyi var, dəftər-qələmi var, başqa məsələləri var...

Gün o gün olur ki, uşaq universiteti sürünə-sürünə, bir təhər bitirir. Elə bu ərəfə də ata krediti bitirir. Zalım bu qonşu da dayanmaq bilmir də. Bir də eşidirlər ki, uşağı düzəltdi filan yerə işə. Vəssalam, dərd başladı. Arvad başlayır danışmağa, ta kirimək bilmir: bu uşağa bir iş tapa bilmədik. Balam gül kimi məktəb bitirib oturub evdə. Xalxların da uşağı odur ey, gör, haralarda işləyir.

Yaxşı, bunu eşidən ata nə eləsin? Uşaq da ki, nə işə qəbul imtahanı verəndi, nə də oturub təzədən qabağına kitab-dəftər tökəndi. Olan-qalan hövsələsini də 4 il universitet əlindən alıb.

Ata düşünür ki, yox ey, yenə bir banka baş çəkim, görüm faizlər indi necədir, pul götürüm bu uşağa bir iş tapım. Düşür bank-bank yenə də gəzir, axır biri ilə razılaşıb, pul götürür. Sonra da fikirləşir ki, İlahi-pərvərdigara, mən bu pulu indi kimə etibar edib verim ki, işimi görsün, birdən bir nadürüstə rast gələrəm, pulum batar, it də gedər, ip də. Artıq bu, qalır Allaha, qarşına ya dürüst biri çıxa, pulunu alıb işini görə, ya da nadürüstü çıxa, pulunu alıb aradan itə.

***

Hə, kişi başlayır dərd çəkməyə, fikir eləməyə. Arvad da o tərəfdən qayıdır ki, ay kişi, axı eviydi də oturmuşduq, nəyimizə lazımdı bu ikimərtəbəli ev? Heç yuxarı qalxan da yoxdur. Kişi də başlayır çığırmağa: az, dünənədək sən deyildin, gündə qonşunun evinə, bax, deyən? İdi nə artistlik edirsən?

Sonra arvad görür ki, fikir bu kişini yıxacaq, kişi də kreditləri arvadın üstünə yıxıb gedəcək, düşür qorxuya, başlayır danışmağa. Axı bu maşın nəyimizə lazım idi? Birtəhər ötüşürdük də. Bu dəfə də kişini cin vurur:- Ay Allah, amansan, heç xəbərin yoxdu ki? Gündə-gündə başımı xarab edən sən deyildin ki, xalxın arvadı maşınlarda gəzir, mən də bazardan qollarımda sizə yemək daşıyıram?

Bir gün də arvad görür ki, yox ey, ta bu kreditlərin əlindən evdə bişirməyə də bir şey tapmır. Başlayır yenə deyinməyə:- Axı uşaqdı da, dedi ki, ata məni qoy dərzilik öyrənim, oğlan da dedi ki, ay ata elm mənlik deyil, qonşuluqdakı Həsən kişi yaxşı maşın ustasıdır. Qoy məni onun yanına, gedim öyrənim. Dedin ki, yox ey, gərək diplomunuz olsun. İndi nə zəmanədir ki, qonum-qonşunun uşağı təhsil ala, siz də sənət öyrənəsiniz.

Bu dəfə kişi dəli olmasın, bəs nə eləsin. O tərəfdən qayıdır ki, arvad səsini kəs. Məni qızışdırıb ortaya salan sən deyildin? İndi başlamısan ayrı söz danışmağa. Sənə baş qoşan yerdə başım batardı, deyib, iki əli ilə başına bir qapaz endirir.

* * *

Amma nə faydası? Banklara kredit kredit üstündədir, ay da ki, elə başlamağı bilir, bir də görürsən ki, kreditin vaxtı çatıb. Zənglər dalbadala düzülüb. İndi gəl, başını itirmə görüm, necə itirmirsən. Əlində-ovcunda nə var, ver banka, otur, əlini aç Allaha, ruzi istə. Vallah, həqiqətən də bizimki Allaha qalıb. Allah köməyimiz olsun.

**Mətanət Məmmədova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Virtual platforma: Bizi necə yönləndirirlər?

***Xəbər aclığını doyurmaq istəyənlər üçün hər növ xəbər vacibdir- sosial, kriminal, şou və s. Bunun üçün irili-xırdalı çox sayt, portal var. Amma məlumat almaq ehtiyacı duyanlar xəbəri gerçək ünvanından, ciddi mənbələrdən yox, sosial şəbəkələrdən almağa üstünlük verir. Səhərdən axşamadək virtual platformadakı şəbəkələrdə gəzən istifadəçi yalan-doğru olmasına əhəmiyyət vermədən qarşısına çıxan hər bir məlumatı acgözlüklə udur. Hadisələrdən xəbərdar olmaq istəyən insanlar bəzən onlara təqdim olunan məlumatların bir növ əsirinə çevrilirlər.***



Gündəmdəki məlumatlardan davamlı xəbərdar olmaq üçün özündən nəyisə qurban vermək lazım gəlir- vaxtını, enerjini, sağlamlığını və s. Bir insanın ən qiymətli sərvəti onun vaxtı və sağlamlığıdır. Həyatımızdan axıb gedən hər saniyə bizim üçün çox dəyərlidir və bu vaxtın bizdən sağlamlığımızı, gəncliyimizi, enerjimizi, gözəlliyimizi də alıb apardığının fərqində olmuruq. Həyatımızdan əskilən hər dəqiqə əvəzində bizə hər hansı məlumatı, xəbəri, dedi-qodunu bəxş edir. Bu, bir növ barterdir, lakin adekvat olmayan alış-veriş. İnsan xəbər almaq və xəbər vermək, ehtiyac duyduğu səpkidə məlumat axtarışında olmaqla, əslində, özünün məmnuniyyət ehtiyacını ödəmiş olur, lakin bir çox halda bu mənuniyyətin ona baha başa gəldiyinin fərqində olmur.





Virtual dünyanın ən böyük bəlası özünü hər məsələdə fikir bildirməyə borclu hesab etməkdir. Ətrafında olanlardan xəbərsiz olması bir çox insanda gərginlik hissinə səbəb olur, bu isə öz növbəsində başqaları ilə münasibətinə təsir edir, hadisələrdən geridə qaldığını, insanların sürətinə yetişə bilmədiyini düşünür. Bu səbəbdəndir ki, insanlar sosial şəbəkədə məlumatının olduğu və ya olmadığı bütün hadisələr barədə fikir bildirmək üçün özünü məsul sayır.

Çox insanın meyilli olduğu dedi-qodu da beləcə yaranır əslində. Sadəcə, məkan fərqi var. Əvvəllər evlərdən, çayxanalardan, küçə qapılarının önündən ayaq açıb yayılan bu dedi-qodular indi sosial şəbəkələrdə doğulur, ayaq açır və yayılır. Dedi-qodunun cazibəsi eyni xəbəri yüz minlərlə adamın fərqli şərhlərlə yayması fonunda daha da artır. Bu da öz növbəsində o deməkdir ki, eyni xəbəri hər zəka başqa cür qəbul edir, fərqli analiz edir, çeşidli sayda yayılmasına səbəb olur.

İnsanların bu özəlliyi isə bu xəbərlərin yayılmasından külli miqdarda xeyir götürən menecerlərin, idarəçilərin, reklamçıların işini asanlaşdırır. Hamının hər hansı bir hadisə barədə fikir bildirməsi, mülahizə yürütməsi, şərh verməsi səni də buna təhrik edir, özünü buna borclu hiss edirsən. Daha sonra başqa bir xəbər, sonra digəri, sonra yenisi. Beləliklə, günün boş keçmir, hər gün yeni mövzu var, hər gün gündəm dəyişir və sən hər biri haqqında düşünərək zehnini məşğul edirsən. Yuxu yatmırsan, vaxtında yemirsən, günün kompyuter arxasında, əlində telefon, hadisələrə rəy bildirməklə keçir. Bütün bunların fonunda ailənin, çevrənin, ölkənin real problemləri görünməz olur, ətrafındakı daha ciddi problemlərin fərqində olmursan.



İdarəçilər, media patronları, menecerlər, reklamçılar hər gün yeni mövzu istehsal etməyə, dedi-qodu üçün material yaratmağa çalışırlar. Yaratdıqları məlumatları sosial şəbəkələri ötürməyin yolu da xəbər saytlarından - vasitəçilərdən keçir. Xəbər yaymaqda vasitəçilik də vacibdir, çünki bu, qədimdən bu yana belədir. Necə ki, bir zamanlar padşahlar da hər hansı bir məlumatı saraydan kənara yaymaq istəyəndə əlində toxmaq-nağara olan carçını təlimatlandırırdılar. Bazar-dükan, küçəmeydan gəzən o carçılar padşahın istədiyi məlumatı tənbehlədiyi formada əhaliyə eşitdirir, əhali bir müddət o xəbərlə "yatır-qalxır", xəbər "öləndə" carçı yenisini car çəkirdi.

O dövrdə sadəcə padşahlar deyil, tacirlər də o carçılardan istifadə edirdi. Bazara yeni mal gələndə carçı vasitəsi ilə şəhərə xəbər verən tacirlər mallarının daha tez satılmasına nail olurdu. Zamanla carçıların yerini dəllallar aldı və bunun üçün müəyyən məbləğdə ödəniş alırdılar. O dəllallar indi reklam sektorudur. Kütlə ilə əlaqə qurma sahəsində professional təlim alan reklamçılar hər hansı bir məsələ haqqında öz fikirlərini bildirən insanların birləşdiyi virtual platformalarda dəllallıq edirlər.

Məhz elə bu səbəbdən sosial şəbəkələr markaların, mağazaların, şirkətlərin və reklama ehtiyac duyan peşə sahiblərinin dəllallığını üzərinə götürə bilən nəhəng bir vasitə kimi işlədilir. Vasitəçilər sosial şəbəkə istifadəçilərinin yazdığı fikirlərdən pul qazanır. Kimdir bu vasitəçilər, dəllallar? Bir paylaşımları minlərlə insan tərəfindən qanun kimi qəbul edilən, alınmayan bir markaya müştəri qazandıran, tanınmayan markanı ulduz edən və özünü "influencer" adı ilə tanıdan sosial şəbəkə istifadəçiləri. İnfluencerlər və reklam etdiyi məhsulları təqdim edən markalar əməkdaşlıqdan yaxşı pul qazanır, izləyicilər bir çox halda aldadılır.

Şübhəsiz ki, sosial mediada istehsal olunan dedi-qodunu əsaslı xəbərlərdən fərqləndirən ən mühüm xüsusiyyət, xəbər istehsalı və istehlakının çoxtərəfli şəkildə reallaşmağa başlamasıdır. Başqa sözlə, bir çox fərqli insan eyni məlumatı fərqli formada dərk edir, fərqli formada şərh edir. Analiz qabiliyyəti, hadisələri öncəgörmə bacarığı bu məsələdə özünün göstərir, çoxluğun ciddi qəbul etdiyi məlumatın, əslində, sabun köpüyü olmasını çox az adam fərqinə varır. Hətta məlumat real və gerçək olsa da onu analiz edən beyinlər məlumatı dedi-qoduya çevirə bilir, dezinformasiya effekti yarada bilirlər. Virtual platformanın heyrətamiz təsir vasitələri - süni intellekt, ünvanlı reklam, alqoritm kimi üsullarla daha çox insan hədəflənir, hər gün yenisi yaradılan anketlərlə insanların hansı məlumata ac olduğu öyrənilir, xəbər, dedi-qodu menyusu ona uyğun təyin edilir.

Əslində xəbər bir tərəfdən insanı gərginləşdirir və stres keçirməsinə səbəb olur, digər yandan da ideoloji və politik istiqamətdən bir çox insanla eyni fikirdə və ya fərqli düşüncədə olduğunu ortaya çıxarır. Beləliklə analiz etmək olur ki, sosial şəbəkə istifadəçilərinin zəka səviyyəsi necədir, dərketmə və analiz qabiliyyəti hansı ölçüdədir, idealistlər və ya realistlərin nisbəti necədir, nə qədər istifadəçinin politik analiz qabiliyyəti var. Növbəti sosial şəbəkə dedi-qodusu bu analizə görə təyin edilir. Yeni müzakirə mövzusu elə olmalıdır ki, hazırda olduğundan daha çox diqqət cəlb etsin, daha çox müzakirə edilsin.

Məşhur deyim var: "xəbər itin insanı dişləməsi deyil, insanın iti dişləməsidir". Bu ajiotajı yaratmaq onlara hər zaman müyəssər olmur. Bir çox halda alışılmış vəziyyət olur - it insanı dişləyir. Amma hadisələri dəyişmək, mövzunu konteksdən çıxarmaq üçün insanı iti dişləmiş kimi qələmə verirlər. Hadisə böyüyür, hər istifadəçi bir cür şərh edir və gerçək yoxa çıxır. Sən özün də inanırsan ki, əslində, insan iti dişləyib. İş o yerə gəlib çıxır ki, sakit başla düşünəndə bu vəziyyətin nə qədər absurd olduğunun fərqinə varır, küyə gedən olduğunu anlayırsan, dişlənənin insan olduğunu görürsən. Kütlə psixologiyasına uyduğun üçün özün-özünü qınayırsan. Bütün bunların, əslində, hansısa mərkəzdən idarə edildiyini anlayanda isə öz saflığına, səni belə asan tora saldıqlarına heyrət edirsən. Və çox təəssüf ki, səndən çox azdır və beləcə bunu fərqinə varan insanlar fərqinə varmayanların kölgəsində itib-batır.

**Lalə Mehralı**

SƏS
26 yanvar
2023-cü il

# “Cütlük terapiyası”. Niyə tərəflər tək-tək yox, cüt halında terapiya olunmalıdır?

***Müasir dövrdə münasibətlərin əksəriyyəti psixikanın fəaliyyətinin ümumi prinsiplərinə əsaslanır və tərəfdaşların ehtiyaclarını diqqət mərkəzində saxlayır. Bəzən cütlüklər duyğular və davranışlar haqqında çox az şey bilirlər. Münasibətdən məmnunluq tərəfdaşların sosial-mədəni normalar prizmasından subyektiv qavranılması, cütlüyün fərdi ehtiyaclarının ödənilməsi baxımından fəaliyyətinin effektivliyidir.***



ARAŞDIRMA

Cütlük terapiyasının mahiyyəti ideal münasibət və ideal tərəfdaş haqqında illüziyalarla necə ayrılmağı öyrətməkdir. Cütlük terapiyasının nəticəsi o zaman yaxşı hesab olunur ki, iştirakçılar münaqişənin əsas sahələrini tapıb öz aralarında danışıqlar aparmağı və bir-birlərini dinləməyi, eşitməyi öyrənsinlər. Əgər cütlüyün iştirakçıları münasibətlər probleminə verdikləri töhfəyə görə məsuliyyəti öz üzərlərinə götürsələr, qarşılıqlı ittihamlardan bu münasibətlərdəki rolları başa düşməyə və məsuliyyəti öz üzərinə götürəcəksə müsbət hal kimi qiymətləndirilir. Bu vəziyyətdə terapiya nəticəsində ailənin qorunub saxlanılması ehtimalı yüksəkdir.

Lakin bəzən belə olur ki, ortaqlardan biri qismən və ya tamamilə hər hansı bir dəyişiklikdən, öz məsuliyyətini və ya tərəfdaşın sərhədlərini qəbul etməkdən imtina edir. Bu da boşanmaya səbəb olur. Çox vaxt belə cütlüklər patologiyada saxlanılır. Bəzən ünsiyyət, heç bir şəkildə ünsiyyət cəhdlərinin mənasızlığı olmayan aqressiyanı çətinliklə aradan qaldırmağa xidmət edir. Lakin dərin şüursuz konfliktlər üzə çıxdıqda, ünsiyyət prosesi onlar tərəfindən pozula bilir və problemlərin açıq müzakirəsi yalnız münaqişələri daha da kəskinləşdirə bilir.

Problemli ailələr bütün enerjilərini ümidsiz yaşamaq cəhdinə sərf etməyə çalışırlar ki, heç problem yaşamasınlar. Qeyd etmək lazımdır ki, ailə psixoterapevtinin əsas məqsədi nə olursa-olsun cütlüyü xilas etmək deyil, ailə münasibətlərini yenidən qurmaq, onları tərəfdaşların bir-birini eşitməyi öyrənməsi və münasibətlərinin daha açıq olması üçün qurmaqdır. Bu mərhələdə cütlük disfunksional modeldən imtina edir və yeni davranış nümunələrini öyrənir.

Münasibətlərdə güclü bağlılıq varsa, cütlük terapevtinə getməyə dəyər, çünki cütlük terapiyası bağlanma nəzəriyyəsinə əsaslanır.

Cütlük terapevti ərazini və problemi bilir, istiqaməti və məqsədi bilir, əsas hərəkət və anların xəritəsindən istifadə edir. Terapiyada dəyişikliklər düzəldici emosional təcrübə vasitəsilə baş verir. Adi emosional reaksiyalar tərəfdaşları münaqişə dövrünə sürükləyir. Hər hansı bir münasibətdə bir tərəfdaşın hissləri açılmaz olaraq digərinin hissləri ilə bağlıdır, lakin sürətlə inkişaf edən bir münaqişədə onların emosiyalarına hoparaq, bu əlaqəni və öz təsirini görmək çox çətin olur.

Psixoloq Gövhər Məmmədova: ”Cütlük terapiyası tərəflər arasında, ailə içində yaşanan çətin və sıxıntılı dövrlərin ələ alınaraq mübahisələrin həll oluna bilməsini, ailə üzvlərinin yaxşıya doğru dəyişimini mövcudlaşdıran terapi növüdür. Bu terapiya növü yalnız evli şəxslər deyil, ümumiyyətlə, sevgi münasibətində olan hər bir şəxs üçün də nəzərdə tutulub. Burada maraq çəkən nüans cüt halda necə seans aparıldığıdır. Adından da göründüyü kimi cütlük terapiyasının cüt şəkildə aparılmasının məqsədi tərəflərin bir-birinə olan mübasibətinin açıq şəkildə görülməsi, demək istədikləri sözlərin, qarşı tərəfdən gözləntilərin, istəklərin açıq şəkildə danışılmasıdır ki, həm bu zaman psixoloq daha aydın analiz apara bilir, həm də hər iki tərəf suallarına aydın cavab tapa bilir. Lakin tərəflərdən birinin, yaxud hər ikisinin əlavə olaraq psixoloji problemi varsa və bu problem münasibətə mənfi təsir göstərirsə, o zaman cütlük terapiyası ilə bərabər ayrılıqda seanlar da qəbul edilməlidir ki, sağlam münasibət əldə edilə bilsin.

Cütlük terapiyasında digər bir üstünlük ondan ibarətdir ki, bəzən cütlər əsas problemi bilmədən başqa çərçivələrdə mübahisə edirlər, qarşı tərəfi dinləmədən öz doğrularını müdafiə edirlər, bəzən bir-birilərini yetəri qədər tanımırlar, yaxud bir tərəf sadəcə gözləməyi seçir və gözləntiləri qarşılanmadıqda aqresiv halda olduğundan kiçik səbəbdən belə mübahisəyə başlayır. Lakin terapi müddətində əsas problem müəyyən olunur, səbəbləri tapılır daha sonra həll edilir və əvvəlkindən də yaxşı, sağlam münasibət qurulur.

Sevindirici haldır ki, son zamanlar ölkəmizdə ailələrin böyük bir qismi bu terapiya növündən faydalanmağı seçirlər”.

***Havar Şəfiyeva***



“Milan”ın futbolçusu Zlatan İbrahimoviç DÇ-2022-nin finalı haqda danışıb. Qol.az xəbər verir ki, ötən ilin dekabr ayının 18-də oynanılan finalda Argentina Fransaya qalib gəlib (3:3, penaltilər seriyası - 4:2). 41 yaşlı İbrahimoviç isə ”RMC Sport”a açıqlamasında deyib: ”Mən dedim ki, Argentina Dünya Kubokunu mütləq qazanacaq.

# İbrahimoviç: “Messi xatırlanacaq, amma digərləri...”

Qətərdəki dünya çempionatını əbədi tarixə yazmaq üçün kim qalib olmalı idi? Messi tarixin ən yaxşı oyunçusu sayılır, onun qalib gələcəyinə əmin idim.

Gələcəkdə Mbappe bir dəfə də dünya çempionu olacaq. Mən Mbappe üçün narahat deyiləm, qalan argentinalı oyunçular üçün narahatam. Çünki Messi xatırlanacaq. Digərləriinə isə hörmət etmək olmaz. Bunu yüksək səviyyəli peşəkar oyunçu kimi deyirəm. Belə oyun, belə davranışlar bir dəfə qazanacağınıza, amma daha sonra bir daha qazana bilməyəcəyinizə işarədir. Sən bu cür qələbə qazana bilməzsən”.

# Diyetik qidaları almaq, yoxsa hazırlamaq sərfəlidir?

“Sağlam olmaq və yaxşı görünmək kimi müxtəlif səbəblər insanları diyeta saxlamağa məcbur edir. Amma çarəni diyetada görən adamların çoxu nə qədər çalışsa da, istədiyi qədər arıqlaya bilmir”. Bu sözləri SİA-ya açıqlamasında diyetoloq Sevinc Həsənzadə bildirib.

Diyetoloq qeyd edib ki, bol şəkər qəbul etmək insanı kökəldən əsas səbəblərdən biridir: ”Orqanizm artıq şəkəri yağ hüceyrəsi kimi tutub saxlayır. Pəhrizdə olanlar və sağlamlığına diqqət etmək istəyənlər üçün əla bir seçim diyetik qidalar almaqdı deyə düşünürlər. Mən deyərdim ki, bu diyetik hazır qidaları, məhz ofisdə işləyənlər, özlərinə yemək bişirmək, qulluq etmək vaxtı olmayanlara daha çox sərf edir. Düşünürəm, amma bu diyetik qidaların satışını əldə etmək üçün də ucuz məhsullardan hazırlayırlar. Məsələn, ucuz yoqurtlar, kəsmiklər, süd məhsulları, ət, toyuq və s. nəticə etibarı ilə düşünün ki, onlarda faydalı heç nə yoxdur. İşə gedənlər, məktəbə gedənlərə və hətta evdar xanımlarımız fərq etmir yeməklərinizi öncədən axşamdan hazırlamağı məsləhət görürəm. Arıqlamaq üçün pəhriz yeməklərini özünüz etsəz evdə daha yaxşı olar. Arıqlamaq üçün qidalar dedikdə, dərhal gözümüzün qabağına soyutma, suda bişmiş, dadsız, duzsuz təravəzlər gəlir. Ancaq əslində, diyetik yeməkləri hər zaman bu cür hazırlamağa gərək yoxdur.



Pəhriz saxlayanlar üçün maraqlı reseptlər, arıqlamaq üçün xüsusi yeməklər vardır. Sadəcə, bir vacib qayda var: arıqlamaq üçün pəhriz yeməkləri kalori baxımından ciddi məhdudlaşdırılmışdır.

Yəni 100 qram diyetik yeməyin enerji dəyəri 150 kalorindən çox olmamalıdır. Bu pəhriz yeməklərini hazırlamaq üçün siz internetdə baxa bilərsiniz və ya bunu sizə təyin etmək üçün mütəxəssisə müraciət edin. Sağlam olun! Sağlam qidalanın”.

ELAN

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir

**İxtisas fortepiano kafedrası**
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Nəfəs və zərb alətləri kafedrası**
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Kamera ansamblı kafedrası**
Dosent
Baş müəllim

**Fortepiano, orqan, klavesin kafedrası**
Baş müəllim
Baş müəllim

**Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır. Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər. Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**